www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26-30 iyun 2025-ci il Cümə axşamı № 109 (8719) Qiymətı 60 qəpik

**Xəbər**

## Ekspertlərin "savadsız müəllim" davası - haqlı kimdir?

yazısı səh.14-də

**Gündəm**

### Ordumuz baş tacımız: Silahlı Qüvvələrimizin qurulmasından 107 il ötür



Ordumuzu Qafqazın ən güclüsü və Müzəffər edən şərtlər

yazısı səh.6-da

### Prezidentin o mesajı - "Hüdudlarımızın kənarında..."

yazısı səh.7-də

### Ermənistanda kütləvi həbslər: sülh yolu açılır?

yazısı səh.3-də

### Ermənistan yenə özünü "yandırdı" - absurd iddialara Bakıdan sərt reaksiya

yazısı səh.5-də

### Gözlər yenidən Ukraynada: Tramp atəşi kəsə bilməsə...

yazısı səh.12-də

### Ermənistan bu tarixdə qarışa bilər: separatçılar təzədən hərəkətlənir

yazısı səh.7-də

### Deputatdan ailə həkimi təklifi - mütəxəssis baxışı

yazısı səh.15-də

### Bu tarixdə imtahan verəcək abituriyentlər oxusun!

yazısı səh.11-də

### Məhkumların peşə təhsili üçün vacib qərar

yazısı səh.2-də

### Uşaqları uşaq bağçasından kimlər uzaqlaşdırır? - təhlil

yazısı səh.11-də

# ZƏNGƏZUR DƏHLİZİNİN ÖNÜ AÇILIR - İLGİNC GƏLİŞMƏ

İran 12 gündə dostunu və düşmənini tanıdı; cənub qonşumuz İrəvana münasibətini Bakının xeyrinə dəyişəcək?




yazısı səh.8-də

## Müharibənin Azərbaycana ilginc yan təsiri - ərzaq bazarımızda boşluq yaranacaqmı?

"Ən ucuz bazar İranındır, belə getsə, 10 günə İran məhsulu tapılmayacaq"

yazısı səh.10-da



### Zatulin Putinin "kartını" açdı - Bakının axtardığı o şəxs...

yazısı səh.9-da




*Tanınmış politoloq:*

### "Hərbi xərclərimizi artırmaq zorundayıq"

yazısı səh.4-də



*Kamran Əsədov:*

### "Sosial siyasətdə məktəbəqədər təhsil prioritet olmalıdır"

yazısı səh.13-də

YENİ MÜSAVAT
N 109 (8719) 26 iyun 2025

# Məhkumların peşə təhsili üçün vacib qərar



**Peşə təhsilindən yararlanmış məhkumlara dair məlumatları əks etdirən vahid informasiya sistemi yaradılacaq. Musavat.com xəbər verir ki, bu, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən "Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Fəaliyyət Planı"nda əksini tapıb.**

Sərəncama əsasən, Nazirlər Kabineti Ədliyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə peşə təhsilindən yararlanmış məhkumlara dair məlumatları əks etdirən (yararlandıqları peşə təhsili, əldə etdikləri təhsil sənədləri) vahid informasiya sisteminin yaradılması məqsədilə normativ hüquqi bazanın formalaşdırılmasını 2025-2027-ci illər ərzində təmin etməlidir. Vahid informasiya sisteminin istifadəyə verilməsi, həmin informasiya sisteminin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə 10 aidiyyəti dövlət orqanının (qurumlarının) informasiya sistemlərinə inteqrasiyasının təmin edilməsi həyata keçiriləcək.

Eyni zamanda bu müddət ərzində Ədliyyə Nazirliyi digər qurumlarla birgə peşə təhsilinə cəlb edilmiş məhkumların əmək bazarına çıxışını təmin edən müvafiq informasiya sisteminin yaradılmasını təmin etməlidir.

## Bir ildə 22 485 nəfər cinayət törədib

**Azərbaycanda 2023-cü il üzrə cinayət törətmiş şəxslərin sayı 25006, 2024-cü il üzrə isə 22485 olub. Musavat.com xəbər verir ki, bu barədə Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Fəaliyyət Planı"nda bildirilib.**

Qeyd olunub ki, əmək qabiliyyətli yaşda olub, işləməyənvə oxumayanlar cinayət törətmiş şəxslərin daha böyük hissəsini təşkil edir (2023-cü ildə 56.8 faiz, 2024-cü ildə 55.6 faiz). Cinayətlərin törədilməsində əmək qabiliyyətli olub, işləməyən və oxumayanların yüksək faiz göstəriciləri, həmçinin yetkinlik yaşına çatmayanlar tərəfindən cinayət törədilməsi hallarının artması müvafiq hədəfli tədbirlərin tətbiqini qaçılmaz edir. Bu baxımdan, Fəaliyyət Planı cəzaçəkmə müəssisələrində keyfiyyətli peşə təhsilinin həyata keçirilməsini aidiyyəti orqanlar qarşısında vəzifə kimi qoyur. Məhkumların əmək bacarıqlarının inkişaf etdirilməsi, eləcə də iş təcrübəsi olmayanların cəzaçəkmə dövründə təcrübə qazanması üçün bu gün ölkədəki penitensiar müəssisələrin fəaliyyətinin müasir tələblərə uyğunlaşdırılması vacibdir.



## Prezident dörd nəfərə "general-mayor" rütbəsi verdi

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb. Musavat.com xəbər verir ki, sərəncamla Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına "general-mayor" ali hərbi rütbəsi verilib:**

polkovnik İdris Mustafa oğlu Məhərrəmova
polkovnik Vasif Tofiq oğlu Xəlilova
polkovnik Elnur Sadıq oğlu Kazımova
polkovnik Elgün Aqil oğlu Əliyevə.

## Bayram günlərinin havası açıqlandı

**Bayram günlərində ölkə ərazisində gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata əsasən Bakıda və Abşeron yarımadasında iyunun 26-da hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub küləyi əsəcək. Havanın temperaturu gecə 19-22, gündüz 28-33 dərəcə isti olacaq.**

İyunun 27-də havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Cənub-qərb küləyi gündüz mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 20-22, gündüz 28-33 dərəcə isti təşkil edəcək.

İyunun 28-də hava şəraiti yağmursuz keçəcək. Şimal-şərq küləyi gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun gecə 21-23, gündüz 29-34 dərəcə isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin 27-si gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi, gecə və səhər saatlarında duman olacağı ehtimalı var. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-23, gündüz 32-37, dağlarda gecə 8-13, gündüz 20-25 dərəcə isti olacaq.




## AFFA bu ideyadan vaz keçdi

**AFFA Əvəzedicilər Liqasının ləğvi ideyasından vaz keçib.**

"Teleqraf"ın məlumatına görə, bu barədə İcraiyyə Komitəsinin iclasında qərar qəbul olunub.

AFFA-nın baş katibi Cahangir Fərəcullayev Əvəzedicilər Liqasında ötən mövsümün gedişi, komandaların vəziyyəti, statistik göstəriciləri barədə məlumat verib.

Məsələ ilə bağlı Klublar Komitəsinin rəyi dinlənilib. Əvəzedicilər Liqası ötən mövsüm olduğu kimi davam etdiriləcək.

## Bakının üç rayonunda söküntü başlayır

**Bakının Binəqədi, Sabunçu və Suraxanı rayonlarında istismar müddəti başa çatmış, təhlükə yaradan binaların sökülməsi ilə bağlı növbəti mərhələyə start verilib. Söküntü prosesinin həyata keçirilməsi üçün təhlil və texniki sənədlərin hazırlanması üzrə podratçı təşkilat artıq müəyyən edilib.**

Bu məqsədlə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ərazi Tikinti-Planlaşdırma Mərkəzi ilə "Archico Project" MMC arasında müqavilə imzalanıb.

Şirkət seçilmiş ünvanlarda söküntü işlərinin planlaşdırılması, texniki əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanmasını həyata keçirəcək.

Söküntü işlərinin nəzərdə tutulduğu təqribi ünvanlar bunlardır:

Sabunçu rayonu - Babək küçəsi ev 23, M.Frunze küçəsi ev 16, 6-cı Mədən küçəsi ev 38, Məmmədəliyev küçəsi ev 32,

Suraxanı rayonu - Xanlar Ələkbərov küçəsi ev 87,

Binəqədi rayonu - Ağa Nemətulla küçəsi, ev 13 və Dəmiryol küçəsi, ev 19.

Bu proseslər paytaxtda yaşayış təhlükəsizliyinin artırılması və köhnəlmiş tikililərin yenilənməsi məqsədilə həyata keçirilən genişmiqyaslı proqram çərçivəsində aparılır.

## Keçmiş bələdiyyə sədrinə hökm oxundu

**Yeni Suraxanı bələdiyyəsinin sabiq sədri Fikrət Quliyevin cinayət işi üzrə məhkəmə araşdırması başa çatıb.**

"Qafqazinfo"nun məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən son iclasda hökm oxunub.

Eks-bələdiyyə sədrinə külli miqdarda rüşvət alma, vəzifə saxtakarlığı və nüfuz alveri maddələri ilə verilmiş ittiham təsdiqini tapıb. Hökmə əsasən, Fikrət Quliyev 9 il müddətinə azadlıqdan məhrum edilib. Qeyd edək ki, F.Quliyev Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən cinayət məsuliyyətinə cəlb edilmişdi.

## Füzulidə ağır qəza: 3 nəfər öldü

**Füzulidə ağır yol-nəqliyyat hadisəsi baş verib. "Teleqraf" xəbər verir ki, hərəkətdə olan "Mersedes", KİA və "Opel" markalı avtomobillərin toqquşması nəticəsində 3 nəfər ölüb. Ölənlərdən ikisi - Nicat və Ceyhun Aftandil oğlu qardaşdır. Fakta bağlı araşdırma aparılır.**

## Ağsuda vətəndaşları aldadan şəxs tutulub



**Ağsuda xarici ölkəyə viza düzəltmək adı ilə vətəndaşları aldadan şəxs tutulub. DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan APA-ya bildirilib ki, Ağsu Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə vətəndaşların etibarından sui-istifadə edərək onların maddi vəsaitini dələduzluq yolu ilə ələ keçirən, əvvəllər məhkum olunmuş 28 yaşlı Əsəd Əsədzadə saxlanılıb.**

O, zərərçəkmişləri işlə təmin edəcəyinə və xarici ölkələrə getmək üçün viza alacağına dair yalan vədlər verərək aldadıb. Araşdırmalarla saxlanılan şəxsin paytaxtda da analoji cinayətlər törətdiyi müəyyən edilib. Fakta bağlı cinayət işi başlanılıb. Məhkəmənin qərarı ilə Ə.Əsədzadə barəsində həbs-qətimkan tədbiri seçilib. Onun əməllərindən zərər görən başqa vətəndaşlar olarsa, polis orqanlarına məlumat verə bilərlər.

## Gəncədə 4 müəllim qəzaya düşdü

**Gəncə şəhərində üç nəfərin xəsarət alması ilə nəticələnən yol qəzası baş verib. "Teleqraf"ın yerli bürosu xəbər verir ki, hadisə şəhərin Gülüstan qəsəbəsində qeydə alınıb.**

"VAZ 2107" markalı avtomobil digər maşınla toqquşub. Qəza nəticəsində Şəmkir rayon sakinləri 1967-ci il təvəllüdlü Rəna Əhmədova, 1969-cu il təvəllüdlü Məlahət Eyyubova və 1985-ci il təvəllüdlü Vasif Məmmədov müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Yaralılar Gəncədə yerləşən xəstəxanalardan birinə yerləşdirilib. Vəziyyətləri kafidir. Məlumat üçün bildirək ki, qəzaya düşən şəxslər Şəmkirdə orta məktəb müəllimləridir.

## Əxlaqsızlıq edən sürücü saxlanıldı

**Qeyri-etik davranışına görə daha bir taksi sürücüsü məsuliyyətə cəlb olunub. Modern.az xəbər verir ki, polis əməkdaşları tərəfindən Binəqədi rayonunda həyata keçirilən profilaktik tədbir zamanı 99-UX-472 dövlət qeydiyyat nişanlı "Opel Astra" markalı avtomobilin sürücüsünün qeyd edilən əməllərə yol verdiyi müəyyən olunub və o, məsuliyyətə cəlb edilib.**

Qeyd olunub ki, paytaxt ərazisində fəaliyyət göstərən bəzi taksi sürücülərinin qadın sərnişinlərlə xidmətə aid olmayan mövzularda söhbətlər aparmaları və yersiz təkliflər etmələri, etik normalara zidd davranışları barədə polis orqanlarına müraciətlər daxil olur. Bu halların qarşısının alınması məqsədilə paytaxtda profilaktik və nəzarət tədbirləri davam etdirilir.

YENİ MÜSAVAT
N 109 (8719) 26 iyun 2025

**İyunun 25-i, səhər saatlarından Ermənistan hüquq-mühafizə orqanlarının əməkdaşları arxiyepiskop Baqrat Qalstanyanın rəhbərlik etdiyi "Müqəddəs Mübarizə" hərəkatının üzvləri və tərəfdarlarının evlərində axtarışlar aparıb. "Yeni Müsavat" xəbər verir ki, bu barədə Ermənistan KİV məlumat yayıb.**



"Hüquq-mühafizə orqanlarının əməkdaşları "Müqəddəs Mübarizə" tərəfdarlarını təqib etməkdə davam edir.

# Ermənistanda kütləvi həbslər - sülh yolu açılır?

## Hüquq-mühafizə orqanları keşiş Baqratı, tərəfdarlarını, daşnakçı və revanşist fəalları, eləcə də polkovniki saxladı; Paşinyan Rusiyaya bağlı hücrələri dağıdır - Kremldən reaksiya




Onlar "Müqəddəs Mübarizə" tərəfdarlarının evlərində axtarış aparmağa başlayıblar. Hüquq-mühafizə orqanlarının əməkdaşları arxiyepiskopun iqamətgahında da əməliyyat keçirirlər", - məlumatda deyilir. Məlumata görə, hərəkatın mətbuat katibi Lidiya Mantaşyanın və eyni vaxtda təxminən 30 hərəkat üzvünün evlərində axtarışlar başlayıb.

Bildirilir ki, "Müqəddəs Mübarizə"nin iştirakçıları və rəhbərləri Ermənistanda terror aktları planlaşdırıblar. Qeyd olunur ki, bu məqsədə çatmaq üçün B.Qalstanyan bir sıra hərəkat iştirakçıları ilə birlikdə terror törətmək və hakimiyyəti ələ keçirmək üçün minlərlə partlayıcı material və qurğular əldə ediblər. Ermənistan İstintaq Komitəsi Ermənistan baş naziri Nikol Paşinyanın ölkədə dövlət çevrilişi hazırlamaqla bağlı dərc etdiyi məlumat əsasında cinayət işinin başlanması imkanını nəzərdən keçirir.

Baş nazir Nikol Paşinyan hüquq-mühafizə orqanlarının ölkədə hakimiyyətin ələ keçirilməsinin qarşısını aldığını bildirib. O, bu barədə sosial media hesabında yazıb. "Hüquq-mühafizə orqanlarının əməkdaşları kriminal-oliqarx din xadimlərinin Ermənistan Respublikasında sabitliyi pozmaq və hakimiyyəti ələ keçirmək üzrə genişmiqyaslı və bədnam planını alt-üst ediblər", - Paşinyan qeyd edib.

Məlum olub ki, Ermənistan Milli Təhlükəsizlik Xidməti (MTX) "Müqəddəs Mübarizə" hərəkatının rəhbəri arxiyepiskop Baqrat Qalstanyanın iqamətgahında axtarış aparıb. Axtarışlara MTX-nin xüsusi təyinatlılarının cəlb olunduğu bildirilib. Baqrat Qalstanyanla yanaşı, digər din adamları Hrayr Sarkavaq və Movses də saxlanılıb. Ermənistan Milli Təhlükəsizlik Xidməti Sünikin keçmiş qubernatoru, deputat Vahe Akopyan və onun həyat yoldaşı, "Para" TV-nin direktoru Elizabet Petrosyanın evində də axtarış aparır. Onların mobil telefonları müsadirə edilib.

Həmçinin MTX-nin əməkdaşları rəhbəri sabiq prezident Robert Köçəryan olan "Ermənistan" blokundan olan deputat Artur Sərkisyanın evində də axtarış aparıblar. Axtarışların Ermənistanın baş naziri Nikol Paşinyanın daxili dini-siyasi qüvvələrin dövlət çevrilişinə cəhd ittihamları əsasında aparıldığı bildirilib. "Eçmiədzin" blokunun rəhbəri Sevak Xaçaturyan məlumat verib ki, üzvlərdən - Edqar Tamazyan, Artur Makaryan, Arsen Qazaryan və Armen Aleksanyan saxlanılıb.

Ləğv edilmiş separatçı rejimin "deputat"ı Davit Qalstyan və dövlət çevrilişinə cəhddə ittiham olunan "Müqəddəs Mübarizə" hərəkatına dəstək verən bir neçə separatçı da Ermənistan Milli Təhlükəsizlik Xidməti tərəfindən saxlanılıb. Ölkə KİV-ləri silahlı qüvvələrin ehtiyatda olan polkovniki Mihran Maqsudyanın saxlanılması barədə də məlumat yayıb. Polkovnikin evində axtarış aparıldıqdan sonra saxlanıldığı bildirilib.

Bundan başqa, Ermənistan Daxili İşlər Nazirliyinin Cinayət Axtarış İdarəsi ölkədə hakimiyyəti ələ keçirməyə cəhd edən "Müqəddəs Mübarizə" hərəkatı liderlərinin səs yazılarını dərc edib. Səs yazılarında hərəkat liderləri və iştirakçılarının ölkədə hakimiyyəti ələ keçirmək məqsədilə terror aktlarına hazırlaşmaları və bu çərçivədə olan digər planları barədə faktlar yer alıb.

Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Paşinyanın Ermənistanda dövlət çevrilişi ilə bağlı bəyanatlarına reaksiya verib. O, bunu "ölkənin daxili işi" adlandırıb.

Baş verənlərlə bağlı Axar.az təhlilində yazıb ki, Ermənistanda olduqca maraqlı proseslər baş verir: 2026-cı ildə keçiriləcək parlament seçkiləri öncəsi baş nazir Nikol Paşinyan hazırkı imkanlarından istifadə edərək, Rusiyaya bağlı bütün hücrələri dağıtmağa girişib.

**Deputat Asim Mollazadə** həbsləri şərh edərkən "Yeni Müsavat"a bildirib ki, Ermənistanda dövlət çevrilişinə cəhd olub. Onun sözlərinə görə, bunun arxasında keçmiş "Qarabağ klanı"nın liderləri, o cümlədən üzvləri, həmçinin sülh əleyhinə olan millətçi qüvvələr, cinayətkar dəstələr dayanır: "Eyni zamanda Rusiyadan İrəvana gedən biznesmen Samvel Karapetyan da az əvvəl həbs olunub. O da Vardanyan kimi iqtidarı ələ keçirmək təlimatı almışdı. Ona görə də son proseslərdə Rusiya kifayət qədər fəaldır". **A.Mollazadə bununla belə, hesab edir ki, təkcə Moskva deyil, xaricdəki erməni diasporu da aktivdir:** "Hazırda Köçəryan və Sərkisyan, habelə revanşist dairələr kilsəni də prosesə cəlb edib. Ümumiyyətlə, sülh istəməyən qüvvələr Ermənistanı xaosa təhrik edir. Paşinyan isə bu təhlükənin qarşısını indidən almağa başlayıb".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Bəlkə Paşinyanı elə devirsələr, yaxşıdır... - Bakı ilə sülh yolu təmizlənir?



**Erməni katolikosluğunun dini qurumdan çox bir terror yuvası və pozucu ideoloji mərkəz olduğuna şəkk-şübhə qalmadı. Özü də hədəf qismində təkcə türk-müsəlman toplumu və ictimai-siyasi xadimlər deyil, din çuxasına bürünənlər yeri gələndə "əl-ayağa dolaşan" və "milli dəyərlərə xəyanət edən" özününkülərə qarşı da sui-qəsd təşkil edə bilirlər. Növbəti "isti" fakt.**

Dünən Ermənistan İstintaq Komitəsi ölkədə terror aktı və hakimiyyəti zorla ələ keçirmə cəhdinin qarşısının alındığını açıqlayıb. Məlumata görə, hadisədə revanşist hərəkatın lideri, arxiyepiskop Bağrat Qalstanyan ittiham olunur. İstintaq versiyasına əsasən, Qalstanyan və tərəfdarları sabiq hərbçilər və polis əməkdaşlarından ibarət, hər birində 25 nəfər olmaqla ümumilikdə 200 "zərbə" qrupu yaratmağı planlaşdırıblar.

Bu qruplar Ermənistanın müxtəlif yaşayış məntəqələrində yerləşdirilməli və Qalstanyanın təyin etdiyi vaxtda aktiv əməliyyatlara keçərək xaos yaratmalı imişlər. Eyni vaxtda təşkil olunan etiraz aksiyaları isə diqqəti yayındırmaq məqsədi daşıyırmış. Hazırda istintaq davam edir, artıq Qalstanyan və bəzi digər fəallar, o cümlədən mifik "artsax"ın uydurma deputatı David Qalstyan həbs edilib.

Az öncə Rusiya vətəndaşı olan erməni milyarder Samvel Karapetyan İrəvanda hökumətə meydan oxuduğu və erməni kilsəsini müdafiə etdiyi üçün həbsə atılıb. İstisna deyil ki, Paşinayana qarşı terror aktı və hakimiyyəti zorla ələ keçirmə ssenarisində Karapetyan da rol alır. Hər necə olmasa, rusiyalı oliqarx Ermənistana ayaq basandan az sonra bu həbslər baş verib. Yada salaq ki, Bakı bu zatı 44 günlük müharibə zamanı Ermənistana qanunsuz yollarla silah-sursat göndərdiyinə görə axtarışa verib...

Belə təsəvvür yarana bilər ki, Nikol Vovayeviç öz hakimiyyətini qorumaq üçün bu cür sərt addımlara gedir. Ancaq o da sirr deyil ki, indiki hökumətə qarşı duranlar, o sırada Rusiyanın himayə elədiyi radikal müxalifət və kilsə həm də Azərbaycanla ədalətli sülh sazişi imzalamağın əleyhinə olanlardır. Belə çıxır ki, baş nazir Bakı ilə sülh yolu təmizləyir? Görəcəyik.

Çox şey yəqin ki, cəmiyyətin qalmaqallı həbslərə reaksiyasından asılı olacaq. Reaksiya isə böyük ölçüdə neytral və ya laqeyd olacaq. Çünki hazırda baş nazirin ictimai reytinqi xeyli aşağı olsa da, radikal müxalifətin, Sərkisyan-Köçəryan cinayətkar cütlüyünün nüfuzu ondan qat-qat aşağıdır. Kəsəsi, baş nazir nə etdiyini bilir...

Radikal-revanşistlərin satqın saydığı Paşinyan əslində erməni xalqının şansıdır. Həm də ola bilsin, yeganə və sonuncu şansı. Bu zavallı və kinli toplumun ağlı olsa, yenə avantüristlərin fellinə uymasa, ondan istifadə edər. Əsas qonşuları ilə düşmənçilik səhifəsini qapadıb da ağ günə çıxar, rifaha qovuşar. Normal qonşu, ölkə kimi özünü aparar.

Sözsüz, Paşinyan mələk deyil. Amma erməni xalqı Nikoldan möhkəm yapışmalıdır, nəinki təzədən "müharibə partiyası"nın tələsinə düşməlidir. Bizdən yazmaq. Bir yandan da düşünürsən ki, bəlkə elə Paşinyanı devirsələr yaxşıdır? Onda nə boyda qələt etdiklərini çox qısa zamanda anlayar, başlarına döyərlər.

Dəfələrlə yazmışıq, Azərbaycan Paşinyanla yox, erməni xalqı ilə sülh anlaşması imzalamaq niyyətindədir - bütün zamanlarda qüvvədə olacaq sülh sənədi. Belə bir anlaşmanın ermənilər üçün ən sərfəli variantı isə məhz Paşinyan dönəmində mümkün və real görünür. Hansısa revanşist-daşnak hakimiyyətə gələrsə, şərtlər İrəvan üçün qat-qat ağır olacaq. Gerisini açmırıq. "Xırdalamaq" hayların öz işi...

❑ **Z.SƏFƏROĞLU**

YENİ MÜSAVAT
N 109 (8719) 26 iyun 2025



Elxan Şahinoğlu

## “Təhlükə böyüyür: Rusiya, Çin, İran, Şimali Koreya...” - şərh

**“NATO-nun baş katibi Mark Rutte iyunun 24-də Haaqada təşkilatın zirvə toplantısındakı çıxışından əvvəl mətbuat konfransı keçirib. Baş katib bloka üzv ölkələrin ümumi daxili məhsulunun 5 faizini təşkil edən hərbi xərc planını həyata keçirməyin vacibliyini bir daha vurğulayıb. Bu mövzu illərdir müzakirə olunur. Donald Tramp hələ birinci prezidentliyi dövründə Avropa ölkələrinin hərbi xərclərini 5 faizə çatdırılmasını tələb etmişdi. Ancaq Avropa dövlətlərinin əksəriyyəti hələ də hərbi xərclərini 5 faizə çatdırmayıb”.**

Musavat.com xəbər verir ki, bu fikirləri **“Atlas” Araşdərmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** bildirib. Onun sözlərinə görə, Şimali Atlantika Blokunun baş katibi davam etməkdə olan Rusiya təhdidinin, Çin, Şimali Koreya və İrandan gələn təhlükələri diqqətə çatdıraraq NATO ölkələrinin hərbi xərclərini artırmaqdan başqa seçimlərinin qalmadığını xatırladıb.

**Politoloq dünyada və regionda artan hərbi gərginlik fonunda Azərbaycanın müdafiə siyasətinə dair fikirlərini bölüşüb:** “Müasir müharibələrdə texnoloji üstünlükləri olan ölkələr qalib gəlir. Dronlar, orta və uzaq mənzilli raketlər, süni intellektə əsaslanan sistemlər artıq bahalı tank və hava hücumundan müdafiə sistemlərini sıradan çıxarır. Azərbaycanın hərbi sahədə inkişaf etmiş ölkələrlə əməkdaşlığı ordumuzun güclənməsinə ciddi töhfə verir. Dünyadakı gərginlik və yeni təhlükə mənbələri Azərbaycana da hərbi xərclərini artırmağı diktə edir.”

**Politoloqun sözlərinə görə, Azərbaycanın yerləşdiyi coğrafiya, yaxın regionda baş verən müharibələr və geosiyasi risklər fonunda müdafiə sahəsinə ayırmalar artırılmalıdır:** “Rusiya-Ukrayna müharibəsi, İran-İsrail qarşıdurması və Tayvan ətrafındakı gərginlik göstərir ki, artıq dünya yeni müharibələr dövrünə qədəm qoyub. Bu reallıqdan kənarda qalmaq mümkün deyil. Ona görə də Azərbaycan öz təhlükəsizlik arxitekturasını yeni çağırışlara uyğun formalaşdırmalıdır.”

Elxan Şahinoğlu qeyd edib ki, NATO daxilində də hərbi xərclərin artırılması ilə bağlı ciddi təzyiqlər var və bu tendensiya yalnız alyans üçün deyil, bütün ölkələr üçün nümunə olmalıdır.

❑ AFAQ,
“Yeni Müsavat”



## Pistorius: "Müttəfiqlər ABŞ-ın Ukrayna müharibəsinə marağını itirməməsi üçün çalışır"

**Birləşmiş Ştatların Ukrayna münaqişəsində tərəfdaş kimi əhəmiyyəti əvəzsizdir.**

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu barədə Almaniyanın müdafiə naziri Boris Pistorius çərşənbə günü ARD telekanalına verdiyi müsahibədə danışıb.

Onun sözlərinə görə, müttəfiqlər Vaşinqtonun bu münaqişəyə marağını itirməməsi üçün səylər göstərirlər.

“Amerikalılarla Ukrayna məsələsində əlaqəni saxlamaq vacibdir, çünki burada söhbət təkcə regional münaqişədən yox, daha böyük məna kəsb edən məsələlərdən gedir”, - deyə Pistorius bildirib.

“Ona görə də biz onların geri çəkilməməsi üçün çalışmaqda davam edirik. Görək buna nail ola biləcəyikmi”, - deyə o əlavə edib.

❑ “Yeni Müsavat”

# İrəvana verilən son möhlət - dekabrdan sonra...

## Ermənistan “rus-NATO”sunu tərk edə bilər; “Ermənistanı bu hərbi alyansdan çıxarmaq onu faktiki olaraq Qərbin qucağına atmağa bərabərdir”

**Rusiya xarici işlər nazirinin müavini Aleksandr Pankin Ermənistanı öz təhlükəsizlik imkanlarını, o cümlədən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) çərçivəsində kollektiv formatda səmimi və realist şəkildə yenidən qiymətləndirməyə çağırıb.**



Pankin bildirib ki, Ermənistanın KTMT-dəki fəaliyyətini “dondurması” və qərarların qəbulunda iştirak etməməsi fonunda ölkənin öz təhlükəsizliyini necə təmin edəcəyi sual altındadır: “Bütün tərəflər anlayır ki, Ermənistan artıq təşkilatın qərarlarında iştirak etmir. Amma bu ölkə KTMT-nin kollektiv mexanizmlərinə və öz təhlükəsizlik ehtiyaclarına obyektiv yanaşmalıdır”.

Pankin həmçinin bildirib ki, Ermənistanın KTMT-yə üzvlük haqqını ödəməməsi məsələsi 2025-ci ilin dekabrından sonra müzakirəyə çıxarılacaq. Bu qərarın hansı formatda veriləcəyi isə hələlik bəlli deyil.

Ermənistan rəsmi olaraq KTMT-dən çıxmasa da, son illərdə təşkilatla əlaqələrini minimuma endirib: tədbirlərdə iştirakdan imtina edir, birgə təlimlərə qatılmır və maliyyə öhdəliklərini yerinə yetirmir. Moskvanın bu açıqlaması Ermənistanın Qərblə yaxınlaşmasına və KTMT-dən uzaqlaşmasına qarşı diplomatik xəbərdarlıq kimi qiymətləndirilir.

Pankinin timsalında rəsmi Moskva növbəti dəfə İrəvana xəbərdarlıq edib və ən əsası, ilin sonuna qədər vaxt verilib. Dekabrdan sonra Ermənistan KTMT ilə bağlı çığallığına və oyunpozanlığına aydınlıq gətirməli, seçim etməlidir - ya de-yure blokdan çıxır, ya da “dondurma”nı uzun müddət davam etdirə bilməyəcək.

Ekspertlərin qənaəti nədir, İrəvanın seçimi nə olacaq?

**Politoloq Rəşad Bayramov “Yeni Müsavat”a açıqlamasında qeyd etdi ki, Pankin artıq neçənci dəfədir ki, Ermənistanın KTMT üzvü olaraq öhdəliyini xatırladan bəyanatla çıxış edir:** “Son olaraq bir neçə ay əvvəl oxşar açıqlama verən Pankin bildirmişdi ki, Ermənistan 2025-ci ilin sonuna qədər Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) büdcəsinə ödəniş etməsə, təşkilatın digər üzv ölkələri müxtəlif ssenariləri nəzərdən keçirə bilər. Lakin Ermənistanın qurumdan çıxarılması gözlənilmir. İndi də Ermənistanın KTMT-yə üzvlük haqqını ödəməməsi məsələsinin 2025-ci ilin dekabrından sonra müzakirəyə çıxarılacağını deyən Pankin yenə də qərarın hansı formatda veriləcəyinin bəlli olmadığını bildirib. Əslində Pankinin bu istiqamətdə bəyanatları başadüşüləndir. Ermənistan hələ də KTMT üzvü olaraq qalırsa, deməli, müvafiq üzvlük haqqı ödənişlərini də etməlidir. Amma məsələ burasındadır ki, KTMT nizamnaməsində bu məsələ üzv ölkələrin öhdəlikləri kimi göstərilsə də, öhdəliyin yerinə yetirilməməsi halında hansı addımların atıla biləcəyi ilə bağlı konkret bir şey göstərilməyib.

Təbii ki, Rusiya başda olmaqla, üzv ölkələr müvafiq qərarlar qəbul edib, Ermənistanı öz sıralarından xaric edə bilərlər. Amma indiki halda bu, Rusiya üçün məqbul deyil. Çünki birincisi, Rusiyanın problemi Ermənistanla yox, Ermənistan hakimiyyəti ilə bağlıdır. İkincisi isə Ermənistanı bu hərbi alyansdan çıxarmaq onu faktiki olaraq Qərbin qucağına atmağa bərabərdir. Bu isə Rusiya üçün heç bir halda məqbul deyil”.

**Ekspert Rusiyanın bu istiqamətdə heç bir addım atmayacağı qənaətindədir:** “Ermənistan özü də indiki mərhələdə KTMT üzvlüyündən çıxmağa tələsmir. Sadəcə, fəaliyyətini dondurmaqla özləri üçün Qərbin dəstəyini təmin edir. Qərbdən həm maliyyə, həm də silah və texnika alır. Digər tərəfdən isə Rusiyanı qıcıqlandırmamaqla üzərlərinə gələ biləcək təzyiqləri minimallaşdırır. Hər iki ölkənin iqtisadi cəhətdən bir-birindən faydalanması da burada əsas rol oynayır.

Odur ki, mən Ermənistanın KTMT-dən açıq şəkildə imtina edəcəyini düşünmürəm. Amma əgər KTMT üzvlüyündən çıxarılacaqsa, buna etiraz da etməyəcək, əksinə, sevinəcək. Çünki Rusiyadan tədricən də olsa uzaqlaşmaq Paşinyanın Qərb qarşısında götürdüyü öhdəlikdir və əslində elə KTMT-ni hər mənada boykot etməkdə də məqsəd məsuliyyəti digər tərəfin üzərinə atmaqdan ibarətdir.

Amma mən Rusiyanın da öz növbəsində Ermənistanı təşkilatdan çıxarmaq üçün hər hansı addım atmayacağı qənaətindəyəm. Ən maksimum halda müvafiq rüsumların ödənilməməsinə görə Ermənistanın təşkilatda səsvermə hüququnun əlindən alınması haqqında qərar qəbul oluna bilər ki, bu da faktiki olaraq heç nəyi dəyişmir".

**Siyasi analitik Asif Nərimanlının fikrincə, Ermənistan Rusiyanın onu qorumadığı məsələsini yenidən gündəmə gətirə bilər:** “Mövcud şərtlərdə Ermənistanın KTMT-yə qarşı antireaksiya imkanları tükənir. Çünki Trampın gəlişindən sonra Qərbdə Ermənistana verilən dəstək azalıb. Əvvəllər Avropa İttifaqı ilə yanaşı, ABŞ da dəstək verirdisə, indi yalnız Avropadan dəstək var. Bununla yanaşı, Ukrayna müharibəsində başlanan danışıqlar mərhələsi Rusiyanın regiona qayıtması reallığını yaradır və Moskva ilk öncə ən çox itki verdiyi Ermənistanda mövqelərini gücləndirməyə çalışacaq. Bu vəziyyətdə Ermənistanın Rusiya və Rusiyanın lideri olduğu ittifaqlara qarşı sərgilədiyi mövqe zəifləyir. KTMT ilə bağlı seçim anının yaxınlaşması İrəvanı çətin vəziyyətə salacaq. Məsələ ondadır ki, Ermənistan KTMT-dən çıxa bilmir, çünki alternativ təhlükəsizlik zəmanəti yoxdur, Avropadan da lazımi dəstək ala bilmir, eyni zamanda regionda əsas müttəfiq kimi gördüyü İranın düşdüyü vəziyyət də ortadadır. Lakin KTMT-də yenidən aktiv fəaliyyət göstərmək də Ermənistan hakimiyyətinin avropayönümlü xarici siyasi kursuna uyğun deyil. Fikrimcə, rəsmi İrəvan bu dilemmativ vəziyyətdən çıxmaq üçün KTMT-yə qarşı ittihamlarını aktuallaşdıra, hətta sərhəddə müəyyən təxribatlar törətməklə KTMT-nin Ermənistanı qorumadığı arqumentini yenidən gündəmə gətirə bilər”.

❑ Cavanşir ABBASLI,
“Yeni Müsavat”

YENİ MÜSAVAT
N 109 (8719) 26 iyun 2025

**Ermənistan köhnə ampluasındadır. Bir daha əminlik yaranır ki, İrəvanın sülh ritorikası quru sözlərdən ibarətdir. Əks təqdirdə, Ermənistan rəhbərliyi az öncə İstanbulda İslam Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurasının qəbul elədiyi "İstanbul bəyannaməsi"ndən və qətnamələrdən, özəlliklə "indiki Ermənistan ərazisindən zorla və sistemli şəkildə qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququ" adlı qətnamədən xoflanmazdı.**

# Ermənistan yenə özünü "yandırdı" - absurd iddialara Bakıdan sərt reaksiya

## Paşinyanın Türkiyə səfərindən sonra İrəvanın ritorikası sərtləşib



Aydın Hüseynov



Arzuxan Əlizadə

Həmin sənədlərdə Azərbaycanın sülh müqaviləsi ilə bağlı haqlı mövqeyi və iki tələb-şərti, həmçinin qərbi azərbaycanlıların öz dədə-baba torpaqlarına qayıdış haqqı dəstəklənir, İrəvan bu yöndə konstruktivliyə və real addımlar atmağa çağırılır, Xocalı soyqırımı xatırlanır.

Ermənistan XİN bu yanaşmanı "təhrif olunmuş və birtərəfli mövqe" adlandırır, mətndəki "Qərbi Azərbaycan" ifadəsini isə yenə özünə qarşı ərazi iddiası kimi qəbul edir. Ermənistan Xocalı genosidini növbəti dəfə, rəsmən danır, 60-a yaxın ölkəni faktiki surətdə beynəlxalq hüquqa hörmətsizlikdə ittiham edir və onları sənədlərdən öz imzasını geri götürməyə çağırır. Və bunu on illərlə ərazimizin 20 faizini işğal altında saxlamış, konstitusiyasında hələ də Azərbaycana və Türkiyəyə qarşı torpaq iddiaları qaldığı təcavüzkar ölkənin XİN-i bəyan edir!

Halbuki Azərbaycan Konstitusiyasında "Ermənistan" adlı süni dövlətə ərazi iddiası yoxdur. Konstitusiyamızda Ermənistanın hər hansı bölgəsinin adı çəkilmir. Azərbaycanlıların öz tarixi yurd yerlərinə qayıdışı isə ərazi yox, insan haqları məsələsidir.

Bundan əlavə, qonşu ölkənin XİN-i Bakını Qarabağda "etnik təmizləmə" aparmaqda ittiham edib. Beləcə, cəmi 20 ay öncə dünyanın gözü qarşısında baş vermiş könüllü köç "etnik təmizləmə" adlandırılır. Əvəzində isə qonşu ölkə XİN-i azərbaycanlıların Ermənistandan vəhşicəsinə qovulmasını dinc köç kimi qələmə verir. Sanki soydaşlarımızı gül-çiçəklə yola salıblar, onlar həttə öz evlərinin rahatca satıb və ya mübadilə ediblər. Üstəlik, bütün bunların fonunda İrəvan altdan-altdan hücum silahları ilə silahlanır.

"Ermənistanın İslam mədəni irsinə hörmətli və qayğıkeş münasibəti hamıya məlumdur və asanlıqla sübuta yetirilə biləndir". Bu cəfəng iddia da Ermənistan XİN-in bəyanatında yer alıb.

Ermənilərin islami dəyərlərə və mədəni irsə göstərdiyi "sayğını" isə 30 illik işğal dövründə hamı, eləcə də müsəlman ölkələri gördü. Məscidlərin əksəriyyətini yerlə bir edən, "Allah evləri"ndə donuz, inək saxlayanlar yəqin yadplanetlilər imiş...

Bəs rəsmi İrəvanın bu davranışını necə oxuyaq? Paşinyan Türkiyə səfərindən sonra niyə radikallaşıb?

**Milli Məclisin deputatı Aydın Hüseynov** "Yeni Müsavat"a bildirdi ki, İslam Əməkdaşlıq Təşkilatının qərbi azərbaycanlıların öz torpaqlarına qayıtması ilə bağlı ideyanı dəstəkləməsi Azərbaycan diplomatiyasının uğurudur. Ermənistan hakimiyyəti isə Azərbaycanın bu uğurunu həzm edə bilmir. Ermənistan XİN-in verdiyi reaksiya və oradakı iddialar da bununla bağlıdır. Burada Paşinyanın Türkiyəyə etdiyi səfərin xüsusi təsirinin olması inandırıcı deyil: "Ola bilsin ki, Paşinyana Türkiyə səfərində rəsmi Ankaranın Azərbaycanla münasibətlərin düzəldilməsinin vacibliyi və Ermənistan-Türkiyə əlaqələrinin necə olacağının bundan xeyli asılı olduğu barədə mesajından İrəvan razı qalmayıb. Lakin narazılığı İslam Əməkdaşlıq Təşkilatının qətnaməsinə münasibətdə ifadə etdiyi düşüncəsində deyiləm. Paşinyanın Türkiyə səfəri olmasaydı belə, İslam Əməkdaşlıq Təşkilatının ədalətli, Azərbaycanın xeyrinə qətnamə qəbul etməsinə Ermənistan öz xislətinə xas formada bu cür reaksiya verəcəkdi. İrəvan bilir ki, Qərbi Azərbaycana qayıdışın çox ciddi siyasi, hüquqi əsasları var. İslam Əməkdaşlıq Təşkilatı kimi böyük beynəlxalq təşkilatın qəbul etdiyi qətnamə də Azərbaycanın əlini gücləndirir. Buna görə də ermənilər narahat olublar. Məlumdur ki, Qərbi Azərbaycana Qayıdış konsepsiyası da mövcuddur. Bununla bağlı beynəlxalq dəstəyin əldə olunması, yeni hüquqi bazanın formalaşdırılması da olduqca vacibdir. Bütün bunlar - bir müddət öncə Türk Dövlətləri Təşkilatının Parlament Assambleyasının Astanada qəbul edilən bəyanatında Qərbi Azərbaycana qayıdışın dəstəklənməsi, indi isə İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatı ölkələrinin görüşündə milli məqsəd və vəzifənin qəbul edilməsi onu göstərir ki, biz öz amalımıza çatırıq. Ermənistan hakimiyyəti də bunun fərqindədir və buna görə ənənəvi böhtan və hay-küyçülüklərini yenə ortaya qoyurlar. Şübhəsiz ki, İslam Əməkdaşlıq Təşkilatındakı ölkələr cılız Ermənistanın məntiqsiz və diplomatik etik normaları pozan çağırışına məhəl qoymayacaqlar".

**Milli Məclisin deputatı Arzuxan Əlizadə isə bildirdi ki, Ermənistan 30 il ərzində Azərbaycan ərazilərini işğal altında saxlayıb. Həmin ərazilərdə 30 il ərzində qanunsuz məskunlaşdırılan ermənilər ərazilər Azərbaycan tərəfindən azad olunduqdan sonra özləri köçüb getdilər**: "Suriyadan, Livandan, Ermnistandan ermənilərin işğaldakı Azərbaycan ərazilərinə köçürüldüyünü bu günlərdə Bakıda məhkəməsi gedən Araik Arutyunyan da açıq şəkildə bəyan etdi. Ermənilərin Azərbaycanın həmin ərazilərdən zorla köçürülməsi, deportasiya edilməsini təsdiqləyən bir dənə də olsun fakt yoxdur. Ermənistan heç bir dəlil-sübuta əsaslanmayan boş bəyanatlar verməkdən başqa bu məsələdə heç nə edə bilmir və edə bilməz. Ermənistan adlanan dövlətin ərazisindən isə yüz minlərlə azərbaycanlı öz tarixi torpaqlarından, evlərindən güc yolu ilə kütləvi deportasiya olunub. Bunu təsdiqləyən saysız-hesabsız sübutlar var. Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın hakimiyyətdə olduğu zaman çıxışlarının birində Ermənistan ərazisində sayı yüz minlərlə olan azərbaycanlıları son nəfərlərinədək Ermənistandan çıxardıqlarını fəxrlə söylədiyini nümayiş etdirən video ötən il yayıldı. Təkcə Ter-Petrosyanın orada dediyi fikirlər Ermənistanın azərbaycanlıları deportasiya etdiyini beynəlxalq məhkəmələrdə sübuta yetirmək üçün kifayətdir. Qərbi azərbaycanlılar məsələsində Ermənistan get-gedə küncə sıxışmaqdadır. Buna görə də ənənəvi böhtan, qara yaxma siyasətinə əl atırlar. Aqressiyası da bundan qaynaqlanır. Öz aləmlərində qabaqlayıcı addım atmaq istəyirlər".

**Deputat qeyd etdi ki, Nikol Paşinyan Türkiyəyə səfərində Türkiyənin Azərbaycanın mövqeyini nəzərə alaraq hərəkət edəcəyinə əmin olub:** "Artıq Paşinyan fərqindədir ki, Türkiyənin mövqeyi Azərbaycanın mövqeyi və tələbi ilə tam olaraq üst-üstədir. Ermənistanın aqressiyası müəyyən qədər buradan qaynaqlanır. Paşinyan növbəti parlament seçkiləri ərəfəsində özünə hansısa divident əldə etmək üçün müxtəlif gedişlər etməkdədir. İstəddiyinə nail ola bilmir. Aqressiya həm də oradan qaynaqlanır. Ermənistanın bu cür ritorikası bizə təəccüblü gəlməməlidir".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"



Rob Bauer

# NATO admiralı: "Alyansın Azərbaycanla əməkdaşlığı qarşılıqlı maraqlara əsaslanır"

**NATO və Azərbaycan arasındakı münasibətlər mühüm strateji tərəfdaşlığı təmsil edir. "Report"un Avropa bürosunun məlumatına görə, bu barədə NATO admiralı Rob Bauer Alyansın sammiti çərçivəsində azərbaycanlı jurnalistlərə bildirib.**

Admiralın sözlərinə görə, Azərbaycan Şimali Atlantika Alyansının 35 rəsmi tərəfdaşından biridir ki, bu da qarşılıqlı əlaqələrin xüsusi xarakterini müəyyən edir.

"NATO və Azərbaycan arasındakı qarşılıqlı əlaqələr Azərbaycan tərəfinin əməkdaşlıq istiqamətləri ilə bağlı konkret sorğularına əsaslanır", - o bildirib.

Bununla yanaşı, qarşılıqlı əlaqələrin spektri NATO və Azərbaycan arasında birbaşa dialoq nəticəsində müəyyən edilir.

"Tərəfdaşlığın mühüm tərkib hissəsi birgə təlimlər və praktiki qarşılıqlı əlaqələrin digər formatlarıdır. Eyni zamanda əməkdaşlıq NATO tərəfindən göstərişlər prinsipi ilə deyil, Azərbaycanın həm alyansın ayrı-ayrı üzv ölkələri, həm də bütövlükdə təşkilatla işləmək istədiyi istiqamətlər əsasında qurulur", - o, fikrini yekunlaşdırıb.

# Tramp İrana zərbələri Xirosimaya atılan atom bombası ilə müqayisə edib

**ABŞ Prezidenti Donald Tramp NATO sammitində çıxışı zamanıdeyib ki, iyunun 22-də ABŞ ordusunun İran hədəflərinə endirdiyi zərbələri Xirosima və Naqasakiyə atılan nüvə bombaları ilə müqayisə etmək olar.**

Xarici medianın məlumatlna görə, o qeyd edib ki, İrana zərbələr 1945-ci ildə olduğu kimi, faktiki olaraq hərbi münaqişəyə son qoyub.

"Bu nəticə müharibəni bitirdi. "Mən Xirosima və ya Naqasaki ilə paralellər aparmaq istəmirəm, amma mahiyyətcə oxşar bir şey baş verdi. Bu, müharibəni bitirdi", - Tramp deyib.

Tramp həmçinin İranın nüvə proqramının "onilliklərlə geri çəkildiyini" deyib və əlavə edib ki, İslam respublikası uzun müddət yeni silahlar istehsal edə bilməyəcək.

Bundan əlavə, ABŞ Prezidenti Qəzzada "böyük irəliləyiş" əldə edildiyini qeyd edərək, ABŞ-ın İrana zərbələrinin Qərbi Asiyaya müsbət təsir göstərə biləcəyini bildirib.

❑ N.HƏSƏNLİ,
"Yeni Musavat"

# İran İsraillə heç bir atəşkəs sazişi imzalamayıb - XİN

**"İran yəhudi dövlətinin təcavüzünə son qoyduqdan sonra, hərbi əməliyyatların dayandırılması ilə bağlı heç bir müqavilə imzalamadan İsrailə cavab zərbələri endirməyi dayandırıb".**

"Yeni Musavat" xarici mediaya istinadla xəbər verir ki, bunu İran İslam Respublikasının xarici işlər nazirinin müavini Səid Xətibzadə deyib.

"Bizim sionist rejimlə (İsraillə -red.) hər hansı bəndləri ehtiva edən hər hansı yazılı razılaşmamız olmayıb. Baş verənlər sionistlərin təcavüzünə son qoydu və buna paralel olaraq İran hazırlığını saxlamaqla heç bir hücum həyata keçirməyəcək", - Xətibzadə bildirib.

Qeyd edək ki, İran və İsrail arasında aktiv hərbi əməliyyatların dayandırılması ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə olub.

❑ NİGAR,
"Yeni Musavat"

# Trampın mövqeyi NATO-nun Haaqa sammitini risk altında qoyub




**Financial Times (FT) Avropa rəsmilərinə istinadən xəbər verir ki, ABŞ Prezidenti Donald Trampın 1949-cu ildə Vaşinqtonda imzalanmış Şimali Atlantika Müqaviləsinin 5-ci maddəsi ilə bağlı şərhləri NATO-nun Haaqa sammitini pozub və görüşün gedişini riskə atıb.**

Əvvəllər Amerika lideri müqavilənin bu maddəsində təsbit olunmuş kollektiv müdafiə prinsipinə sadiq qalıb-qalmaması ilə bağlı suala dəqiq cavab verməyib. "Bu, hansı tərifdən istifadə etdiyinizdən asılıdır", - Tramp deyib.

FT-nin mənbələrindən biri deyib: "Sammit Trampın hansı qərar verəcəyindən asılıdır". "Biz hamımız burada oturub onun Avropanı müdafiə edib-etməyəcəyini söyləməsini gözləyirik".

NATO-nun zirvə toplantısı iyunun 24-dən 25-dək Haaqada keçirilib. Onun əsas mövzusu alyansa üzv dövlətlərin müdafiə xərclərinin aşağı həddinin ÜDM-in 5%-nə qədər artırılmasıdır.

❑ AFAQ,
"Yeni Musavat"

# Rubio: "NATO-nun hərbi xərclərinin artırılması..."



**NATO ölkələrinin hərbi xərclərinin ÜDM-in 5 %-nə qədər artırılması Birləşmiş Ştatlara hərbi resursların dünyanın digər bölgələrinə yenidən bölüşdürülməsinə diqqət yetirməyə imkan verəcək.**

"Report" xəbər verir ki, bunu ABŞ dövlət katibi Marko Rubio bildirib.

"Əgər hər kəs öz öhdəliklərinə əməl etsə, bu, daha səriştəli tərəfdaşlarla daha güclü bir ittifaq olacaq. Açığı, bu, Birləşmiş Ştatların NATO-nun güclü və ən böyük iştirakçısı olaraq qalmasına, eyni zamanda dünyanın digər hissələrində resursları yenidən bölüşdürməsinə imkan verəcək", - o qeyd edib.

Haaqada keçirilən NATO sammitində dövlət və hökumət başçılarının hərbi xərclərin ÜDM-in 2%-dən 2035-ci ilə qədər 5%-ə çatdırılması barədə qərar qəbul edəcəkləri gözlənilir.

❑ "Yeni Musavat"

# Almaniya müdafiə naziri: "ABŞ-ın Ukrayna münaqişəsinə marağını qorumağa çalışırıq"

**"Amerikalıların Ukrayna məsələsində iştirakını qoruyub saxlamaq vacibdir. Çünki bu mövzunun təhlükəsi regional bir münaqişədən daha çoxdur".**

APA xəbər verir ki, bunu Almaniyanın müdafiə naziri Boris Pistorius yerli televiziyaya müsahibəsində deyib.

O qeyd edib ki, Almaniya hazırda ABŞ-ın Ukrayna münaqişəsindən çəkilməməsi üçün çalışır.



# Ordumuz baş tacımız: Silahlı Qüvvələrimizin yaradılmasından 107 il ötür

## Polkovnik: "Geosiyasi arenada gedən proseslər fonunda hər bir ölkənin güclü olması onun suverenliyinin, müstəqilliyinin göstəricisidir"

**26 iyun Azərbaycan Silahlı Qüvvələrinin yaradıldığı gündür.**

Azərbaycan Silahlı Qüvvələrinin əsası 1918-ci ilin 26 iyununda Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulub. Cümhuriyyət hökumətinin ilk müntəzəm ordu hissəsini - Əlahiddə Azərbaycan korpusunu yaratmaq barədə qərarı müstəqil dövlətin öz sərhədlərini qoruma və təhlükəsizliyi təmin etməyə qadir hərbi gücə malik olmasının vacibliyini anlamasını göstərirdi. Lakin Cümhuriyyət cəmi 23 ay yaşadığından ordu quruculuğu prosesi də yarımçıq qaldı. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi və müstəqil ordu quruculuğuna son qoyuldu. Sovet dönəmində Azərbaycan ərazisində yerləşən hərbi hissələr SSRİ ordusuna tabe idi. Bu illərdə Azərbaycan vətəndaşları da sovet ordusunda xidmət edib, hərbi təcrübə qazanıblar.

Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra milli ordunun yenidən formalaşdırılması zərurəti yarandı. 1991-ci il oktyabrın 9-da Azərbaycan Respublikası Ali Soveti "Azərbaycan Respublikasının Milli Ordusunun yaradılması haqqında" qərar qəbul etdi. Lakin ilk ordu birləşmələrinin yaradılmasına hələ SSRİ dağılmamışdan əvvəl, məhz 1990-1991-ci illərdə başlanmışdı. 26 iyun tarixi isə simvolik olaraq milli ordu quruculuğunun başlanğıcı kimi qəbul edildi və 1998-ci ildə Prezident Heydər Əliyevin sərəncamı ilə Silahlı Qüvvələr Günü elan edildi.

Müstəqil Azərbaycanın Silahlı Qüvvələri 1990-cı illərin əvvəllərində həddən artıq mürəkkəb şəraitdə formalaşmağa başladı. Həm Ermənistanla hərbi münaqişə, həm də siyasi sabitliyin olmaması ordu quruculuğunu ləngidir və çətinləşdirirdi. Lakin sonrakı illərdə ordunun strukturlaşdırılması, peşəkar kadrların hazırlanması, hərbi texnikanın modernləşdirilməsi istiqamətində ciddi addımlar atıldı.

2020-ci il sentyabrın 27-də başlayan və 44 günlük Vətən müharibəsi Azərbaycanın hərbi gücünü və Silahlı Qüvvələrin peşəkarlığını bir daha nümayiş etdirdi. Müharibədə əldə olunan qələbə sayəsində ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Müasir texnologiyalarla silahlanmış Azərbaycan Ordusu strateji planlama ilə zəfər qazandı. Hazırda Azərbaycan Ordusu regionda güclü və peşəkar silahlı qüvvələrdən biri sayılır. Müasir texnika ilə təchiz olunmuş, döyüş qabiliyyəti yüksək olan bu ordu ölkənin təhlükəsizliyinin qarantıdır. Orduda aparılan islahatlar, beynəlxalq hərbi əməkdaşlıqlar və kadr hazırlığı Azərbaycanın hərbi potensialını daha da artırır.

Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası barədə illik hesabatda bildirilib ki, ölkənin müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması məqsədilə dövlət büdcəsində nəzərdə tutulmuş dövlət əsaslı vəsait qoyuluşu xərclərindən və digər ehtiyat vəsaitlərdən ayrılmış 99,1 milyon manat məbləğində vəsait də nəzərə alınmaqla 2024-cü ildə müdafiə və milli təhlükəsizlik sahəsinə dövlət büdcəsi xərclərinin 17,7 faizi həcmində və ya 6661,3 milyon manat məbləğində vəsait yönəldilib.

2024-cü ilin dövlət büdcəsindən cari ödənişlər üzrə müdafiə və milli təhlükəsizlik xərclərinə aidiyyəti büdcə təşkilatlarının xərc sifarişlərinə uyğun olaraq 6562,2 milyon manat məbləğində vəsait ayrılıb ki, bu da 2023-cü illə müqayisədə 707,4 milyon manat və ya 12,1 faiz çoxdur. Bu xərclər ÜDM-in 5,2 faizini (2023-cü illə müqayisədə 0,4 faiz-bənd çox), dövlət büdcəsi xərclərinin isə 17,4 faizini (2023-cü illə müqayisədə 1,3 faiz-bənd çox) təşkil edib.

Dövlət büdcəsindən xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üçün 3492,9 milyon manat vəsait yönəldilib.

"Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Prezidentinin 2011-ci il 28 dekabr tarixli 569 nömrəli Fərmanına uyğun olaraq aparılan tədbirlər çərçivəsində hərbi qulluqçuların mənzillə təmin olunması ilə bağlı xərclər üçün 35,0 milyon manat vəsait ayrılıb və həmin vəsait hesabına (Bakı şəhəri, Hövsan Yaşayış Kompleksi və Sumqayıt şəhəri, Sumqayıt Yaşayış Kompleksi) Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan cəmi 512 ədəd tam təmirli mənzil alınıb. Həmin mənzillərin hərbi qulluqçuların mülkiyyətinə verilməsi rəsmiləşdirilib.

2024-cü ilin dövlət büdcəsinin müdafiə və milli təhlükəsizlik bölməsindən maliyyələşən idarə və təşkilatların dövlət büdcəsindən ayrılmış təxsisatlardan əlavə daxil olmuş vəsaitlər hesabına maliyyələşdirilən xərcləri (büdcədənkənar xərcləri) 21,7 milyon manat təşkil edib ki, bu da 2023-cü illə müqayisədə 5,0 milyon manat və ya 29,9 faiz çoxdur.

**Ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov "Yeni Müsavat" a şərhində bildirdi ki, Azərbaycan Ordusu yüksək peşəkarlığı sayəsində dünyanın ən güclü orduları sırasında yer alır və ordumuzun daha da güclənməsi üçün hər cür dəstək göstərilir:** "Elə ordular var ki, onlar haqqında danışırlar, elə ordular da var ki, özü danışır. Azərbaycan Ordusu özü danışan ordulardandır, danışmağa sözü var. Əldə edilən nəticələr, 44 günlük Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq, işğalçı qüvvələrin darmadağın edilməsi, ərazi bütövlüyünün bərpa olunması, müharibədən bir qədər keçdikdən sonra yüksək səviyyədə antiterror əməliyyatının aparılması, nəticədə suverenliyin bərpa edilməsi bunu sübut edir. Ordumuz bu gün də Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı Cənab Prezident İlham Əliyevin tapşırıqlarını yerinə yetirir. Hazırda Türkiyə modelinə keçid prosesi gedir. Bununla bağlı Azərbaycan ordusunda çox böyük islahatlar aparılır. Düşünürəm ki, Azərbaycan Ordusu Ali Baş Komandan tərəfindən verilən tapşırıqların sonuncu mərhələsindədir. Azərbaycan Ordusu bu gün beynəlxalq təlimlərdə öz peşəkarlığını göstərir və təsdiq edir. Silahlı Qüvvələrin Ali Baş Komandanı qələbədən sonra Azərbaycan Ordusunun dövlət tərəfindən diqqət və nəzarət altında olmasını bilavasitə bildirən cümlə işlətdi. Prezident "Azərbaycan Ordusu lazım olanı alacaq" dedi. Mənə elə gəlir ki, Azərbaycan Ordusuna verilən dəyər, göstərilən diqqət, bundan sonra da güclü ordu kimi inkişaf etdiriləcəyi məhz bu cümlədə tam şəkildə ifadə edilib. Azərbaycan çox mürəkkəb regionda yerləşir. Hazırda Ermənistanla gərginlik davam edir, Rusiya Ukrayna ilə müharibə şəraitindədir, İranda baş verənlər göz önündədir, yəni 3 tərəfdən müharibə şəraitində olan dövlətlərlə əhatə olunan respublikanın Silahlı Qüvvələri çox güclü olmalıdır. Geosiyasi arenada gedən proseslər fonunda hər bir ölkənin güclü olması onun suverenliyinin, müstəqilliyinin göstəricisidir. Hər bir ölkənin gücünün əsas göstəricilərindən biri onun güclü ordusunun olmasıdır. Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti yüksək peşəkarlığa malikdir. Bunun üçün lazımi şərait yaradılıb. Azərbaycan Milli Müdafiə Universitetinin tərkibində xüsusi təyinatlı ali hərbi məktəblər yaradılıb. Bu məktəblərdə yüksək peşəkarlığa malik olan savadlı zabit heyəti yetişir. Bu gün Azərbaycanda demək olar ki, bütün ixtisaslar üzrə savadlı kadrlar hazırlanır. Əminəm ki, iqtisadi potensialı yüksək olan Azərbaycan Ordusunun gələcəkdə ən güclü ordular sırasında pillə-pillə irəliləməsi təmin ediləcək".

❑ Nigar HƏSƏNLİ,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 109 (8719) 26 iyun 2025

# Prezidentin o mesajı - “Hüdudlarımızın kənarında...”

## Azərbaycan regionda sabitlik istəyir

**“Beş ildir ki, Azərbaycanda sülh tam təmin edilib və əlbəttə, hüdudlarımızın kənarında da sülh nə qədər tez təmin edilərsə, həm o ölkələr, həm də təbii olaraq bizim üçün bir o qədər yaxşı olacaq”.**

“Yeni Müsavat” xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev Mingəçevirdəki “8 Noyabr” elektrik stansiyasının açılış mərasimindəki çıxışında deyib.

“Ancaq reallıq budur ki, bu gün bizim ölkəmiz dünya miqyasında sabitlik, inkişaf, tərəqqi məkanı kimi tanınır və bu adı biz öz əməyimizlə, zəhmətimizlə, düşünülmüş siyasətlə qazanmışıq”, - deyə dövlət başçısı əlavə edib.

Prezident “hüdudlarımızın kənarında” dedikdə təbii ki, şimal və cənub qonşularımızın münaqişə vəziyyətində olmasını nəzərdə tutub. Hər iki ölkənin müharibə aparması siyasi-iqtisadi planda Azərbaycana təsir edir. Elə oktyabrın 1-dək quru sərhədlərin bağlı saxlanması ilə bağlı Nazirlər Kabinetinin qərarı da göstərir ki, regionda qeyri-sabitlikdir, eskalasiya riski qalmaqdadır, bu da təhlükəsizliyi davamlı olaraq təhdid edir.

“Quru sərhədlərimizin bağlı qalması dövlətimizin strateji maraqlarını təmin etmək məqsədi daşıyır”.

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Rizvan Nəbiyev** parlamentin iclasında çıxışı zamanı belə deyib.

**Deputat dövlət sərhədinin bağlı olmasını əsaslandıran şərtləri açıqlayıb:** “İlk növbədə ölkənin geosiyasi vəziyyəti, regional təhlükəsizliyin üzləşdiyi çağırışlar, ölkədaxili siyasi sabitliyin dayanıqlı təmini və təhlükəsizliyin daha da gücləndirilməsi bu qərarın verilməsində əsas rol oynayır. Həmçinin qaçaqmalçılıq, narkotik ticarəti, qeyri-qanuni miqrasiya, kütləvi qaçqın axını təhlükəsi kimi faktorlar da sərhədlərin bağlı saxlanmasını zəruri edən şərtlərdəndir. Quru sərhədlərin bu gün də bağlı saxlanması Azərbaycanın milli təhlükəsizliyinin gücləndirilməsi, xarici təhdidlərdən müdafiə olunması və ölkədə sabitlik mühitinin dayanıqlı möhkəmləndirilməsi üçün strateji əhəmiyyət daşıyır”.

Prezidentin verdiyi mesajı necə oxumalıyıq? Bölgədə tam stabillik təmin olunana qədər sərhədlərimiz bağlı qala bilərmi?

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev** “Yeni Müsavat”a bildirdi ki, cənab Prezidentimiz bu fikirlərlə Azərbaycanın sülh tərəfdarı olduğunu, bütün regionda və dünyada sülh, dostluq münasibətlərinin bərqərar olmasını istədiyinin mesajını növbəti dəfə verib. Dünyanın və regionun istənilən nöqtəsində münaqişələrin, böyük müharibələrin təkcə müharibə edən tərəflərə deyil, bütün dünyaya, bütün regiona



mənfi təsirlərinin olduğunu, bu faktorun nəzərə alınmasının və buna uyğun hərəkət edilməsinin vacibliyinin mesajını vermiş olub: “Müharibələr dünya iqtisadiyyatına, dünyada təhlükəsizliyə təhdid yaradır. Azərbaycan növbəti dəfə bunu ölkələrə xatırladır. Azərbaycan Prezidentinin qalib ölkənin, regionda, dünyada nüfuzu olan dövlətin lideri kimi bu çağırışları, bu mesajları verməsi tamamilə təbiidir. Dövlət başçımızın dünyada qəbul edilən lider kimi yerləşdiyimiz regionda sülhün, təhlükəsizliyin təmin olunmasına hədəflənən bəyanatlarının proseslərə təsir gücü yetərincədir. Bu bir təsdiqlənmiş reallıqdır ki, təhlükəsizlik mühitinin təmin edildiyi dövlətlər, regionlar inkişaf edir, müharibələr, təhlükəsizliyin təmin edilmədiyi dövlətlər, regionlar isə inkişafdan qalır, sarsıntılarla üz-üzə qalır. Azərbaycanda uzun illərin zəhməti hesabına təhlükəsizlik mühiti formalaşıb. Dünyada bir Azərbaycan nümunəsi var. Azərbaycandan bu baxımdan nümunə götürülməli çox şeylər var”.

**Komitə sədri qeyd etdi ki, regionda baş verən hadisələr, Rusiya-Ukrayna müharibəsi, İsrail-İran müharibəsi Azərbaycanın sərhədlərinin bağlı saxlamasının necə düzgün olduğunu bir daha təsdiqlədi:** “Nəzərə almaq lazımdır ki, regionda vəziyyət hələ qarışıq olaraq qalır. Rusiya-Ukayna müharibəsi davam edir. İsraillə İran arasında atəşkəs razılaşması əldə olunsa da problemlər hələ də həll olunmamış qalır və heç kim yeni qarşıdurmanın olmayacağına təminat verə bilməz. Ona görə də hesab edirəm ki, bölgədə tam stabillik təmin olunana qədər sərhədlərimizin bağlı qalması daha düzgün olar və bunu normal qəbul etmək lazımdır”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Ermənistan bu tarixdə qarışa bilər - separatçılar hərəkətlənir

## Ermənilər “dəmir yumruq” üçün darıxıblar...



**Ermənistanda fəaliyyət göstərən “Artsaxın hüquqlarını müdafiə şurası” adlanan birlik 12 iyul tarixində İrəvanda mitinq keçirəcək.**

Təşkilatın yaydığı bəyanatda deyilir ki, yürüş iyulun 12-də, saat 18:00-da Azadlıq meydanından başlayacaq: “Biz buradan müvafiq dövlət qurumlarına yürüş edib, kütləvi itaətsizlik aksiyaları keçirəcəyik. Vədlərimizdə qətiyik və seçilmiş yoldan dönməyəcəyik. Hərəkətlərimizin təfərrüatını həm müsahibə zamanı, həm də yerində, birbaşa əlaqə formatında açıqlayacağıq. Məqsədimiz ümumi birlik naminə vahid, əlaqələndirilmiş və səmərəli əməkdaşlığı təmin etməkdir”.

Aktivliyi artmaqda olan separatçı tör-töküntüləri fəallaşdıran hansı qüvvələrdir? Rusiyanın burada əli varmı? Qarabağdan getmiş ermənilər vasitəsilə “ikinci miatsum” hərəkatı körüklənir?

**Milli Məclisin deputatı Kamran Bayramov** “Yeni Müsavat”a bildirib ki, özünü “Artsaxın hüquqlarını müdafiə şurası” adlandıran qurumun mitinq keçirməyi planlaşdırması Ermənistanın daxili siyasi böhranının və separatçı qüvvələrin hələ də aktiv olmasının bariz nümunəsidir: “Təşkilatın bəyanatı Ermənistanın suverenliyinə və hüquqi sisteminə qarşı açıq çağırışlardır. Bu cür fəaliyyətlər Ermənistanın beynəlxalq öhdəliklərinə və regionda sülhün bərqərar olunmasına ciddi zərbə vurur”.

O qeyd edib ki, Qarabağdan köç etmiş ermənilər arasında “ikinci miatsum” ideyasının yenidən gündəmə gətirilməsi regionda yeni separatçı hərəkatların yaranması riskini artırır: “Bu cür təşəbbüslər, həm Ermənistanın daxili sabitliyini pozmaq, həm də Azərbaycanın ərazi bütövlüyünə qarşı təhdid yaratmaq potensialına malikdir. Bu qrup daha əvvəl də oxşar aksiyalar təşkil edib. Məsələn, bu ilin martında keçirilən mitinq zamanı Ermənistan hökumətinə qarşı bir sıra tələblər irəli sürülmüş, nəticədə bəzi sosial proqramların müddəti uzadılmışdı. Lakin bu, separatçıların əsas məqsədlərinə çatmalarına səbəb olmayıb. Onların əsas tələbləri sırasında Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxmaq və beynəlxalq hüquqa zidd iddialar yer alır. Ermənistanda separatçı qüvvələrin yenidən fəallaşması sülh gündəliyinə zərbə vurur. Ermənistan hökuməti separatizmin qarşısını almalı, bölgədə sabitlik və əməkdaşlıq mühitini pozacaq addımlardan çəkinməli, beynəlxalq hüquqa uyğun davranmalıdır. Bu cür qrupların fəaliyyətinə göz yumulması və ya dolayısı ilə dəstək verilməsi, regionda sabitliyin pozulmasına və yeni münaqişələrin yaranmasına səbəb ola bilər. Ermənistan qonşu dövlətlərin suverenliyinə hörmət etməli və daxili siyasətində bu prinsipləri rəhbər tutmalıdır”.

**Deputat bildirib ki, ləğv olunmuş qondarma “artsax” rejiminin qalıqları, bu gün hüquqi məsuliyyətə cəlb olunsalar da, müəyyən dairələrin dəstəyi ilə özlərini yenidən gündəmə gətirməyə çalışırlar:** “Samvel Şahramanyanın dindirilməsi və saxta seçkilərə buraxılmaması bu qrupun legitimlik iddialarının tam çökdüyünü göstərsə də, onların arxasında dayanan qüvvələrin varlığı inkarolunmazdır”.

**K.Bayramov vurğulayıb ki, bütün bu proseslər fonunda Azərbaycanın mövqeyi tamamilə aydındır:** “Azərbaycan Respublikası öz suverenliyini və ərazi bütövlüyünü tam təmin edib, heç bir separatçı çağırış bu reallığı dəyişə bilməz. Bu baxımdan, ölkəmizin möhkəm hüquqi mövqeyi, güclü ordusu və qəti siyasi iradəsi fonunda bu cəhdlərin nə hüquqi, nə də faktiki əsası mövcuddur. Azərbaycan dövləti sülhə və əməkdaşlığa sadiqdir, lakin suverenliyimizə qarşı yönələn istənilən addıma qətiyyətlə cavab verməyə qadirdir. Regionda sabitliyin yeganə yolu isə beynəlxalq hüququn və dövlət sərhədlərinin toxunulmazlığının tam şəkildə tanınmasından keçir”.

**Politoloq Əhəd Məmmədli bu cür çağırışların heç bir perspektivinin olmayacağını düşünür:** ""İkinci miatsum hərəkatı"nın başlanılması real deyil. Çünki başı işləyən hər bir erməni bilir ki, bu, Ermənistanın dövlət olaraq məhvinə gətirib çıxara bilər. Amma ermənilər içində sağlam düşünməyənlər hələ də az deyil və onlar revanş haqqında fikirləşirlər. Lakin onların gücü və tərəfdarları əvvəlki kimi çox deyil. Ona görə bu cür çağırışların harasa gətirib çıxaracağını düşünmürəm. Düzdür, “milçək bir şey deyil, amma könül bulandırır”. Qarabağ ermənilərinin vızıltısı davam edir. Bu vızıltının heç şübhəsiz ki, arxasında Rusiya durur. Gülüstan və Türkmənçay razılaşmalarından sonra Qarabağa yerləşdirilməyə başlayan erməni milçəyinin vızıltısının arxasında indiki kimi rus ayısı durub. Bəzən bu milçək arı kimi bizi sancıb da. Yenidən bunun baş verməməsi üçün Bakı İrəvanda baş verənləri diqqətlə izləməli və erməni cəmiyyətinə ciddi şəkildə odla oynamamaq xəbərdarlığını etməlidir. Paşinyan özü də Qarabağ ermənilərindən qurtulmaq istəyir. Paşinyan-katalikos mübarizəsində, Qarabağ erməniləri təbii olaraq ikincinin tərəfindədir. Əlbəttə ki, Paşinyan da bunun fərqindədir. Üstəlik, Rusiya və qərbyönümlü müxalifət qüvvələri də Paşinyana qarşıdır. Onlara erməni diasporunun bir hissəsini də əlavə etsək, Paşinyana qarşı böyük bir koalisiyanın olduğunu görürük. Gələn il Ermənistanda parlament seçkiləri keçiriləcək. Sorğu nəticələrinə görə, Paşinyan iqtidarının nüfuzu azalıb. Bu sorğu nəticələri fakt deyil, lakin cəmiyyətdə müəyyən təsirə də malikdir. Hələ irəlidə bir il var. Seçki öncəsi Ermənistanda bütün siyasi maraqlı tərəflər maksimum fəallıq ortaya qoyacaq. Xarici ölkələrdən də təsirlər artacaq. Bu bir il ərzində Azərbaycan və Türkiyə Ermənistanda baş verənləri nəinki izləməli, həm də təsir etməlidirlər, hər bir gedişata hazır olmalıdırlar".

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**



# Alternativ riyaziyyat

Zamin HACI
zaminhaci@gmail.com

**Dövlət İmtahan Mərkəzinin (DİM) İdarə Heyətinin sədri Məleykə Abbaszadə AzTV-nin "Hədəf" verilişində deyib ki, riyaziyyat fənni üzrə nəticələr hələlik istədiyimiz səviyyədən aşağıdır.**

Burada bir haşiyə çıxaraq söhbətin AzTV-də olmasına müəyyən diqqətinizi yönəltmək istəyirəm. Uca millətimiz dövri-qədimdən əmindir ki, başqa kanallar heç, ancaq AzTV-də səslənən bütün fikir və mülahizələr, fərman və qərarlar, hətta reklam və elanlar hansısa ilahi qanunauyğunluqlara tabedir, pozulmazdır, əbədidir. Məsələn, rayon icra hakimləri, prokurorlar, rəislər və sairə nazirlər hər axşam AzTV-də xəbərləri həyəcanla izləyirlər. Neçəsi şəkər xəstəliyinə mübtəla olmuşdur. Lakin bugünlərdə Qaxın icra başçısı Şəkiliyevi "Xəbərlər" proqramı gedə-gedə tutub dama saldılar və bir gün sonra işdən azad edildi (bunun özü hardasa absurd və postmodernizmdir, çünki Qaxın başçısı Qaxlıyev soyadı daşımalı idi və Şəkiliyevi gərək Şəkiyə müdir qoyardılar; lakin artıq gecdir, bu müzakirələrin mənası yoxdur).

O cümlədən İsrail-İran qırışmasının şiddətli bir anında AzTV xəbər vermişdi ki, bombalardan hansısa keçmiş İran prezidenti Əhmədinecat müəllimin başına düşübdür. Ancaq az sonra bunu təkzib etdilər və... tamaşaçılardan üzr istədilər!

Təsəvvür elə... Açığı, mən Brejnevi taxtda, Şəkiliyevin xalası oğlu Əhməd Əhmədzadəni qundaqda görmüş adamam, lakin ilk dəfə idi AzTV-nin üzr istəməyinə şahid olurdum. Görünməmiş hadisədir.

Eyni zamanda zəhmətkeşlərimizdə müəyyən qeyri-sabitlik, təbəddülat, çaşqınlıq duyğuları yaranmasına səbəb olur. İndi biz başımıza haranın daşını tökək? Kimə inanaq? Nəyə and içək? Müqəddəs nə qaldı? AzTV üzr istəyən əraizdə, məsələn, ATV-filan özünü bağlamalıdır. Xəzər TV dənizə atılıb boğulmalıdır. İctimai TV ictimaiyyət arasına çıxmamalıdır və sairə.

Bəlkə tələsmək lazım deyildi, çünki Trampın hay-küyünə baxmayaraq, İsrail-İran atəşkəsi nəsə çürük görünür, ola bilər, təzədən raketlər uçuşsun. O zaman raketlərdən biri Əhmədinecat müəllimə tərəf düşərdi, xəbər mistik şəkildə, gec də olsa. doğrulardı. Əcəldən hələ heç kim qaça bilməyib, xüsusilə Əzrayıl nəyisə AzTV-də anons edibsə. (Bu temada qorxulu-məzəli "Final Destination" - "Son dayanacaq" adlı filmlər seriyası var). Oxşar mövzuda bir Şərq hikmətini də yəqin bilirsiniz. Bir nəfərin yuxusuna Əzrayıl girir, mələk buna necə təəccüblə baxırsa adam qorxur, səhər oyanan kimi qaçır Süleyman peyğəmbərin yanına, deyir, küləyə tapşır, məni tez Hindistana atsın, ölmək istəmirəm. Peyğəmbər bunu Hindistana yollayır, sonra Əzrayıla deyir ki, bu yazığı niyə belə qorxutmusan, Əzrayıl deyir: "Hə, mən onun canını Hindistanda almalıydım, burada rastlaşdıq, ona görə təəccüblə baxmışdım".

Sözü ona gətirirəm ki, bəlkə Abbaszadənin xalqımızın riyaziyyatı zəif bilməyi söhbəti də təkzib olunacaq, dəxi üzr istəniləcək. Anar müəllimin "Təhminə və Zaur" əsərində deyilən kimi, tələsmək xalqımıza yaraşmır.

Üstəlik, DİM sədri bizim "istənilən səviyyədən" aşağı nəticə göstərdiyimizi söylərkən niyə həmin səviyyəni də açıqlamır? Xalq həqiqəti bilmək istəyir. Bizə plankanı, hündürlüyü göstərin, tullanaq. Yoxsa belə mücərrəd istəklər keçmir. Mən də hökumətimizin istədiyim səviyyədən aşağı nəticə göstərdiyini yazaram... Açığı, yazmaram, söhbətdi eləyirik. (Bu yerini oxumayın).

Riyaziyyat üzrə dünyada çoxlu səviyyələr var: Harvard, Oksford, Kaprativ Universiteti, nə bilim, Statistika Komitəsi... Hansına uyğun imtahan verməliyik?

Bir də ki, məncə, riyaziyyatın həyatımıza uyğun gəlməməsi xalqda, onun burnufırtıqlı uşaqlarında çaşqınlıq yaradır, imtahanda ol səbəbdən aşağı nəticələr ortaya çıxır. Məsələn, bizdə 400 manat maaş alan adamın ayın axırında 1500 manat xərclədiyi ortaya çıxa bilər. Bu necə baş verir, heç kim başa düşmür. Yaxud hökumət deyir Parisdəki kimi yaşayırıq, ancaq sən baxırsan, Eyfel qülləsi əvəzinə öz əfəl kəlləni görürsən. (Qafiyə üçün yazdım, mənzərə baxış bucağından və sayın oxucuların fantaziyasından asılıdır). Riyaziyyatda iki dəfə iki dörd edir, bizdə altı, bəzən yeddi olur.



# Zəngəzur dəhlizinin önü açılır - ilginc gəlişmə

## İran 12 gündə dostunu da, düşmənini də tanıdı; Tehran bundan sonra İrəvana münasibətini Bakının xeyrinə dəyişə bilərmi?

**Tarixdə ilk İran-İsrail savaşı bitdi. Maraqlıdır ki, 12 gün çəkən hərbi qarşıdurmada Tehran da özünü qalib sayır. Hərçənd əksər siyasi müşahidəçilər əksini düşünür. Müharibədən ən ciddi nəticə çıxarmalı tərəf kimdir? Konkret olaraq İran nə qədər müddətdə öz "yaralarını yalayıb" sağalda biləcək? Biləcəkmi?**

Bir mühüm məqamı da qeyd eləmək lazım gəlir: Tehran 12 gündə öz dost-müttəfiqlərini bir daha tanıdı - əgər onlar, ümumiyyətlə, var idisə. Rusiya, Çin ABŞ və İsraillə birbaşa konfliktə getmədi. Türkiyə isə gözlənildiyindən də artıq İranı müdafiə etdi.

Ermənistan da sınaqdan sıxmadı. Üstəlik, məlum oldu ki, İrəvan dost dediyi İran haqda ABŞ-a sərhəddə kəşfiyyat məlumatları toplamağa şərait yaradıb. Belədə sual yaranır: Tehranın İrəvana, Zəngəzur dəhlizinə ənənəvi münasibəti Bakının xeyrinə dəyişə bilərmi?

"Əgər İranda abır-həya qalıbsa, Zəngəzur dəhlizini bir daha "qırmızı xətt" adlandırmaz. Onun öz içində bütün "qırmızı xətt"lər 13-24 iyun tarixlərində keçildi. Ona görə də rəsmi Tehran "daşı ətəyindən töküb" dəhlizlə bağlı razılaşmalıdır. Onsuz da müqaviməti qırıldı və təsir gücü zəifləldildi, güman etmirəm ki, dəhliz mövzusunda əvvəlki qədər radikal mövqe tutmağı bacaracaq". Bu sözləri "Yeni Müsavat"ın sualına cavabında **professor Qabil Hüseynli** deyib. Onun sözlərinə görə, İran bu hadisələrdən həm də dərs çıxarmalıdır. O, hesab edir ki, Tehran ağıllanmalı, dostunu-düşmənini tanımalı, Azərbaycanın qədrini bilməlidir: "Hərçənd bunu İrandakı rejimdən gözləmirəm. Fəqət ən azı bəsirət gözlərini açıb həqiqətləri görmək fürsəti yaranıb. İran 12 gün ərzində hansı dövlətin necə rəftar etdiyini başa düşməlidir. Xüsusən də "qardaş" dediyi Ermənistanın ona necə xainlik etdiyini bilməlidir. Azərbaycanla sərhəddə İsrail kəşfiyyatı axtaran Tehran rejimi son hadisələrdə şahid oldu ki, bağrına basdığı Ermənistan öz sərhədinə avropalı binokl agenturasını yerləşdirməklə ona qarşı platsdarm verib. Həmin kəşfiyyatçılar sərhəddə İranın mövqelərini öyrənib Qərbdəki mərkəzlərə göndəriblər. Bu baxımdan, cənub qonşumuz Azərbaycanla normallaşan hazırkı əlaqələri inkişaf etdirməklə paralel, Zəngəzur dəhlizinin açılması istiqamətində manea rolundan da imtina etməlidir. Bu günlərdə Vilayəti öyünərək bəyan etmişdi ki, dəhlizin qarşısını İran aldı və bu da guya ölkəsinin qüdrətindən xəbər verir. Ancaq hansı qüdrətdir ki, səması İsrail qırıcılarının əlində idi, içəri əldən gedib, nəticədə generalları, alimləri öldürüldü. Odur ki, Tehran rejimi xeyli sarsılıb, o dərəcədə gücü qalmayıb, dəhlizlə bağlı inadından da əl çəkmək məcburiyyətindədir".

**Q.Hüseynli belə zənn edir ki, Ermənistan da əsas müttəfiqinin aldığı zərbənin təsirini öz dərisində hiss etməkdədir**: "Əvvəla, İran bir daha gördü ki, Türkiyə və Azərbaycan ona qarşı hücum olanda hansı obyektiv mövqedən çıxış edirlər. Bizdən pislik gözləyənlər yanıldılar. Əksinə, Rusiya, Ermənistan İranı açıq müdafiə etmədilər. İkincisi, Paşinyan İstanbula getdi, başa düşdü ki, Zəngəzur dəhlizi açılmağa məhkumdur. Nəhayət, bu layihə Orta dəhlizin bir hissəsidir. Yeni beynəlxalq logistikadır və onun bloklanması böyük güc mərkəzlərinə meydan oxumaqdır. Deməli, o dəhliz ya açılacaq, ya açılacaq..."

**Politoloqun sözlərinə görə, İran özünü toparladıqdan sonra Zəngəzur dəhlizi ilə bağlı destruktiv mövqeyini yenə davam etdirə bilər. Onun qənaətincə, bu məsələdə Türkiyənin təsiri böyük əhəmiyyət kəsb edir:** "Son hadisələrdə Ankara açıq şəkildə Tehranı dəstəklədi və İsrailin hərəkətlərini pislədi. İndi İran bundan nəticə çıxarmalı və Türkiyə ilə danışıqlarda Zəngəzur koridorunun açılması ilə bağlı tutduğu mövqeyini yumşaltmalı, bu yükdaşımalardan onun da iqtisadi dividendi olacağını qəbul etməlidir".

**Beynəlxalq ekspert Suren Sərkisyan İran və İsrail arasında münaqişənin gərginləşməsini şərh edərkən deyib ki, Türkiyə hazırda regionda nəzarətsiz və balanssız fəaliyyət göstərir:** "O, strateji müttəfiqi Azərbaycan vasitəsilə yalnız öz maraqları əsasında əməliyyatlar həyata keçirə bilər. Əgər İran əvvəllər çəkindirici rol oynayırdısa, bu gün onun təsiri zəifləyib. Bu, bizdən həddindən artıq ehtiyatlılıq və dəqiq strateji hesablama tələb edir".

"Zəngəzur dəhlizi açılmalıdır, buna alternativ yoxdur". Bunu isə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT PA) baş katibi Asəf Hacıyev deyib.

İyunun 21-də Ermənistanın baş naziri Nikol Paşinyan bildirib ki, İrəvan, Türkiyə və Azərbaycan arasında məhək daşı olan Zəngəzur dəhlizinin adını dəyişmək istəyir. Yeni ad "Sülhün kəsişməsi" olacaq. Paşinyanın sözlərinə görə, bu ərazidən ədalətli və dinc istifadə istəyini əks etdirəcək. "Biz dedik ki, Zəngəzur dəhlizi olmayacaq, sülh yollarının kəsişməsi olacaq. Bu nə deməkdir? Bu, qarşılıqlı tanınma və ərazi bütövlüyü, suverenlik və bərabərliyə hörmət deməkdir", - Paşinyan İstanbulda ermənilərlə görüşündə deyib. Ermənistanının hökumət başçısı əlavə edib ki, Türkiyə və Azərbaycanın səyahət üçün Zəngəzur dəhlizindən istifadə etməsində heç bir problem görmür. Onun fikrincə, bu, Ermənistan üçün sadəcə bir üstünlükdür - dəhlizdən çoxlu yük keçərsə, sabit logistik marşrutlar çəkilərsə, bu, hamı üçün faydalı olar.

Zəngəzur dəhlizinin qitələrarası əhəmiyyəti ondan ibarətdir ki, Çinin son illərdə artan iqtisadi nəqliyyat şəbəkəsinə yeni alternativi təmsil edir. Bu alternativ malların Çindən Türkiyənin şərq əyalətlərinə, oradan isə Aralıq dənizi və ya İstanbul Boğazı vasitəsilə Avropaya daşınmasını nəzərdə tutur.

Zəngəzur dəhlizi Mərkəzi Asiya, Xəzər regionu, Azərbaycan və Ermənistanı Türkiyə ilə birləşdirən sosial-iqtisadi, geosiyasi və geostrateji xüsusiyyətlərə malikdir. Bu onu deməyə əsas verir ki, Azərbaycan, Türkiyə, Rusiya və Ermənistan arasında nəqliyyat-logistika şəbəkəsini genişləndirəcək dəhliz regional ticarətə müsbət təsir göstərəcək və Cənubi Qafqazda iqtisadi əməkdaşlığın qurulmasında mühüm rol oynayacaq. Dəhliz Azərbaycan, Türkiyə, Rusiya, Ermənistan və İran arasında dəmir yolu şəbəkəsini genişləndirməyə imkan verəcək, həmçinin Asiya-Sakit okean regionundan Türkiyəyə Mərkəzi Asiya, Xəzər regionu, Azərbaycan və Ermənistanı birləşdirən bir çox ticarət marşrutları açacaq.

Bu, Şərq-Qərb dəhlizinin, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin və Xəzər nəqliyyat şəbəkəsinin daha da möhkəmlənməsinə töhfə verəcək. Bu, həm də Xəzər-Avropa neft-qaz kəmərləri sisteminin işini asanlaşdıracaq. Dəhlizin açılması Avropa İttifaqı, ABŞ, Rusiya və Çinin enerji təchizatı xətləri üçün mühüm rol oynayan regionun tranzit potensialını artıracaq.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 119 (8719) 26 iyun 2025

# Zatulin Putinin "kartını" açdı - Bakının axtardığı o şəxs...

## Kremlin Ermənistanda hakimiyyətə gətirmək istədiyi milyarderlərdən biri Bakıda, biri də İrəvanda həbsdədir; Rusiyanın planı bu dəfə baş tutacaqmı - rəy



**Rusiya vətəndaşı olan erməni oliqarx və milyarder, 44 günlük müharibə zamanı işğalçı ölkəyə qanunsuz silahlar göndərdiyi üçün Azərbaycanda haqqında cinayət işi açılmış Samvel Karapetyanın Ermənistanda həbs olunması haqda xəbər vermişik. Formal olaraq o, erməni Apostol kilsəsini dəstəklədiyi və Paşinyan hökumətinin üzərinə getdiyi üçün saxlanılıb. Karapetyan həbsini siyasi motivli sayır.**

"Nikol Paşinyan 2026-cı ilin iyununda yenidən necə qalib gələcəyi ilə bağlı baş sındırır. Bu məqsədlə də yeni kampaniyalara, o sırada erməni kilsəsinə qarşı mübarizəyə başlayıb".

"Yeni Müsavat" xəbər verir ki, bunu Rusiya Dövlət Dumasının MDB ölkələri ilə iş üzrə komitə sədrinin 1-ci müavini, Azərbaycan düşməni Konstantin Zatulin deyib. O hesab edir ki, Karapetyan erməni xalqının lideri ola biləcək bir şəxsdir və Paşinyanın "qanunsuz" addımları ona özünü təkcə biznesmen və xeyriyyəçi kimi yox, həm də siyasətçi təsdiqləmək şansı verir.

"Mən Samvel Karapetyanı yaxşı tanıyıram və əminəm ki, o, öz xristian kökündən, erməni kilsəsinə hörmətindən danışanda səmimidir", - deyə bədnam deputat qızışdırıcı sözlərinə davam edib.

Qeyd edək ki, K.Zatulin sıradan bir deputat deyil, komitə sədrinin müavini, Putinin sədri olduğu hakim "Vahid Rusiya" Partiyasının üzvü, ən əsası Ermənistanı kurasiya edənlərdən biridir. Az öncə isə Rusiya XİN-in sözçüsü Mariya Zaxarova Karapetyanı müdafiə edəcəklərini bildirmişdi.

Edəcəklərmi? Kremlin planı yeriyəcəkmi? Azərbaycanın axtarışa verdiyi şəxsin hakimiyyət olimpinə qalxması mümkündürmü?

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə** "Yeni Müsavat"a bildirdi ki, Karapetyan Rusiyanın Ermənistanda növbəti siyasi cəhdidir. Hüquq müdafiəçisi onu Gürcüstanın milyarderi Bdzina İvanişvili, yaxud da Bakıda həbsdə olan milyarder Ruben Vardanyanla müqayisə etdi: "Rusiya Saakaşvilini seçki yolu ilə devirməyi bacardı və biznesmen İvanaşvilinin qurucusu olduğu partiya iqtidara gəldi. 2012-ci ildən Moskvaya yaxınlığı ilə seçilən bu qüvvələr hakimiyyətdədir. Kreml oxşar ssenarini o zaman Qarabağ üzərindən Vardanyanla oynayıb onu İrəvanda hakimiyyətə gətirmək istəyirdi, alınmadı və indi Bakıda mühakimə olunur. Bu dəfə Karapetyanla - daha bir iş adamı ilə Paşinyanı dəyişməyə cəhd olundu, amma yenə alınmadı. Nəzərə alaq ki, Karapetyan böyük pullara və Ermənistanda biznesə sahib iş adamıdır, ən əsası isə Rusiya vətəndaşıdır. Yəni Paşinyanın onu həbs etməsi Kremllə sövdələşmə predmeti ola bilər. Çünki Karapetyan Rusiya vətəndaşıdır və onu uzun müddət həbsdə saxlaya bilməzlər. Bir yandan Putinin təzyiqləri artacaq, bir tərəfdən isə hüquqi cəhətdən onun Rusiyaya ekstradisiyası məsələsi qaldırıla bilər. Bununla belə, Karapetyanın hələ həbsdə qalacağını gözləyirəm".

**Hüquq müdafiəçisi vurğuladı ki, gələn ilin iyununa qədər onun həbsdə qalması istisna deyil və bu müddətdə Paşinyan seçkideki əsas rəqibi zərərsizləşdirmiş olacaq**: "Köçəryan da həbs olunanda Putin Paşinyana onun azad edilməsi üçün müraciət ünvanlamışdı. Karapetyanın sərbəst buraxılması üçün eyni xahişin olacağı mümkündür, yuxarıda dediyim kimi, siyasi sövdələşməyə gediləcəyi gözlənilir. Hər halda, görünür, Rusiyanın bu planı da baş tutmadı. Üstəlik, Ermənistanda ictimai əhval-ruhiyyə anti-Rusiyadır, o səbəbdən Moskva kimi namizəd kimi ortalığa atmağa başlasa, daxildən dəstək ala bilmir. Karapetyan haqda bunu söyləmək bir qədər çətindir, çünki oliqarxdır, sadə ermənilərə pul xərcləyərək səs qazana bilər. Paşinyan da bunu bildiyi üçün indidən qarşısını alır. Azərbaycana da onun həbsi sərf edir. Bakının axtarışa verdiyi şəxsi özümüz istintaq cəlb etməsək də, bunu Ermənistan edib. Əsas odur ki, cəzasını çəksin. Onun işğalçılara verdiyi dəstəklə bağlı sübutlar əlimizdədir".

Arayış üçün bildirək ki, Karapetyan Rusiyanın "Taşir" şirkətlər qrupunun rəhbəridir. "Forbes" nəşrinin siyahısına əsasən hazırda Karapetyanın 4 milyard dollar sərvəti var. O, Rusiya vətəndaşı Albert Avdolyandan sonra dünyada ən zəngin erməni əsilli şəxs hesab edilir. 1965-ci ilin avqustunda Ermənistan SSR-in Taşir (əvvəl Kalinino) şəhərində doğulan Karapetyan İrəvan Politexnik İnstitutunu bitirdikdən sonra 1990-cı illərdə Rusiyaya köçərək Kaluqa şəhərində "Gazprom"a xidmət edən logistika şirkətinə rəhbərlik etməyə başlayıb. 1999-cu ildə "Taşir Group"u yaradıb. Bu holdinqə bağlı 200-dən çox şirkət fəaliyyət göstərir və işçilərinin ümumi sayı 30 mindən çoxdur.

**Karapetyanın Rusiyadakı əsas biznes sahələri aşağıdakılardır:**

*- Ticarət mərkəzləri: "RIO" brendi altında 16 ticarət kompleksi, 1,1 milyon kv/m ticarət sahəsi;*

*- Ofis və anbar sahələri, təxminən 98000 kv/m ofis, 48000kv/m anbar;*

*- 8 hotel, o cümlədən məşhur "Novotel Moscow City" və "Ararat Park Hotel Moscow" hotelləri;*

*- Moskva və regionlarda çoxsaylı yaşayış, ofis layihələri inşa edib.*

Eyni zamanda Karapetyan Moskvada uzunmüddətli müqavilələr imzalayıb və mərkəzi küçələrin işıqlandırılmasını həyata keçirib.

Karapetyanın İrəvanda iki böyük ticarət mərkəzi var. Ermənistanın Elektrik Şəbəkələri şirkəti ("Electric Networks of Armenia") ilə Hrazdan Termik Elektrik Stansiyasının səhmlərini də alıb.

O, həmçinin Moskvadakı "Ararat" futbol klubunu dəstəkləyir və erməni iş adamlarından ibarət "Association of Armenian Entrepreneurs" təşkilatına rəhbərlik edir. Qardaşı Karen Karapetyan isə Ermənistanın tanınmış siyasətçilərindən biridir.

Onu da qeyd edək ki, Azərbaycan Prokurorluğu 2021 ci ildə Karapetyan barəsində Cinayət Məcəlləsinin 5 maddəsi (100.1, 218.1, 228.3, 279.1 və 206.4-cü) ilə cinayət işi açıb və o, beynəlxalq axtarışa verilib. Karapetyan eyni zamanada Rusiya Prezidenti Vladimir Putinə yaxın olan iş adamı kimi ABŞ-ın sanksiya siyahısına salınıb.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Bir savaşın iki qalibi? - Təcrübə göstərir ki, müharibədə adətən məğlublar çox olur



**Xalid KAZIMLI**

**İranın İsrail və ABŞ tərəfindən vurulması istər-istəməz adamın yadına 1991-ci ildə İraqın ABŞ və koalisiya ortaqlarının hücumuna məruz qalmasını salır.**

Bu iki hadisə arasından bənzərliklər var, amma fərqlər də çoxdur.

Hər ikisi ambisiyalı Şərq-müsəlman ölkəsiydi, aralarında 8 illik müharibə də olmuşdu. Axırda bir qərinəlik zaman fərqi ilə eyni supergüclərin hücumuna məruz qaldı.

1990-91-ci illərdə Səddam Hüseyn də ABŞ-ın real təhdidlərini heçə sayırdı və əmin idi ki, Ağ Ev və Pentaqon blef edir, heç bir hücum olmayacaq. Amma hücum yavaş-yavaş hazırlandı və bir gün həyata keçirildi.

Günümüzdə rəsmi Tehran da o düşüncədəydi, 15 ildən çox idi ABŞ və İsrail İranı təhdid edirdi, amma sözdən işə keçmirdi. Bu, yəqin ki, Tehranı arxayınlaşdırmış, Vaşinqton və Təl-Əvivin blef etdiyi qənaətinə gətirmişdi.

Əks təqdirdə, bu qədər ağır bombardmana məruz qalacağını bilə-bilə sona qədər direşməyə anlam verməк olmur.

Şəxsi planda inadkarlıq etmək, qürurlu davranmaq, lazım gəlsə, özünü fəda etmək başqa şeydir, amma dövlətin mənafeyi, millətin taleyi olan yerdə "öldü var, döndü yoxdur" ritorikası son dərəcə zərərlidir və xalqa qarşı cinayətdir.

Xüsusilə də əhalisinin sayə 80 milyonu aşmış bir ölkənii aclıq və səfalət, müharibə fəlakəti riski altına atmaq yolverilməzdir.

O zaman Səddam Hüseyn belə davrandı, məğlubiyyətə uğradı. Bu ilin iyun ayında İran rəhbərliyi də başqa yol seçmədi. Halbuki nüvə danışıqlarının növbəti raundunda gərginliyi azaltmaq, kompromis yolu tutaraq müharibədən qaçmaq mümkün idi.

Bu iki savaş arasında daha bir bənzərlik odur ki, 1991-ci ildə ABŞ prezidenti Corc Buş (ata) işğalçı İraq ordusunu Bəsrəyə, Bağdada qədər qovandan sonra savaşı saxladığı, Səddam Hüseyni devirmədiyi kimi, indi də Tramp Əli Xamneyinin hakimiyyətinə son qoymaq fikrində olmadığını bəyan edib.

Səddam Hüseyni sonradan oğul Corc Buş devirdi, asdırdı, necə deyərlər, atasının başladığı işi başa çatdırdı.

Ancaq ABŞ və İsrailin İranda hakimiyyət dəyişikliyinə çalışmamasının bir neçə başqa səbəbi ola bilər. Onlardan birincisi odur ki, Xamneyi onsuz da yaşlı adamdır, 86 yaşı var və xəstədir, onu məhv edib və ya devirib əfsanələşdirməyin faydası yoxdur.

İkincisi, Səddam klassik diktator idi, hakimiyyətin mərkəzi fiquru idi. Onun devrilməsi və edamı boşluq yaradacaqdı və elə də oldu. Ancaq Xamneyi teokratik totalitar rejimin növbəti liderlərindən biridir, onun fiziki yoxluğu halında hakimiyyətə "siyasi bürö"də təmsil olunan başqa bir ayətullah yiyələnəcək, rejim çökməyəcək.

Üçüncüsü, ABŞ-da hesablayıblar ki, İranda hakimiyyət dəyişikliyi xaosa, vətəndaş müharibəsinə səbəb ola bilər, bu halda bütün Yaxın Şərq regionunda fəlakət qaçılmaz olar - Suriyadakının 5 qatı qədər.

Ancaq İsraildə düşünürlər ki, İranı idarə edən mövcud iqtidar komandası tamamilə hakimiyyətdən kənarlaşdırılmayınca və cəzalandırılmayınca, İran öz hərbi-siyasi ambisiyasından, xüsusilə də nüvə silahı əldə etmək niyyətindən əl götürməyəcək.

Dünən İranın atom enerjisi üzrə təşkilatının nümayəndəsi Bəhruz Kamalvəndi bu xüsusda bildirib ki, İran nüvə sənayesini məhv edə bilməzlər, İran onu inkişaf etdirəcək və bu prosesi heç vaxt dayandırmayacaq.

Bu, "bombardmanı dayandırmayın, yerdə qalan nüvə obyektlərimizi də vurun, imkanlarımızı sona qədər məhv edin" deməkdir.

Həm ABŞ, həm də İsrail tərəfi isə domino daşlarından düzəldilmiş evciyi bir barmaq zərbəsi ilə aşırmış biri kimi arxayınlıqla nüvə obyektlərinin məhv edilməsindən bəhs edirlər.

Tramp "hər şey bitdi, daha İran nüvə silahı brədə düşünmür" deyir, Tehran isə obyektlərin təhlükəsizliyini təmin edə bildiklərini bəyan edir. Bu paradoks belə bir ehtimala yol açır ki, həqiqət ortadadır. Yəni nüvə obyektləri çox ciddi zədə alıb, amma tam məhv edilməyib, onları bərpa etmək şansı qalır.

Gerçəkdən də peyk şəkilləri göstərir ki, bombardman başlamazdan əvvəl Fordodakı yeraltı nüvə obyektinə aparan tunelləri doldurmaq üçün iş görülür.

Ehtimal olunur ki, bu, həm hava hücumlarından, həm də xüsusi təyinatlı qüvvələrin qurudan işğalı ehtimalından qorunmaq üçün edilib.

Ancaq bu tədbirlər effektiv olubmu, zondajlar ağır bombaların zərbəsinə tab gətiribmi, indilikdə bilmək çətindir.

Tunellərin doldurulmasının bir səbəbinin də bombardmandan sonra mümkün radiasiya sızmalarını da minimuma endirməsi barədə versiyalar var və bu da ciddiyə alınası arqumentdir.

Hazırda hər iki tərəf qələbə təntənəsi içindədir. Tarixi təcrübə isə göstərir ki, əksər müharibələrin nəinki iki qalibi olmur, hətta çoxunda hər iki tərəf məğlub olur. Bir az, biri çox.

Yeni MÜSAVAT
N 109 (8719) 26 iyun 2025

**İran-İsrail hərbi münaqişəsi başlayandan qonşu ölkədən Azərbaycana ərzaq məhsulları gətirilmir. Bu barədə sahibkar Elgün Məmmədli İTV-yə danışıb: "Biz İrandan yağ, pendir, xurma, düyü, şokoladlar alırıq. İndi yollar bağlıdır deyə məhsullar gəlmir və qiymətlərdə də artım var. Hazırda kimin əlində nə varsa, onu satır. Bir həftədir ki, yollar bağlıdır, mal ala bilmirik. Ən çox tələbat İran yağlarınadır. Əlimizdə isə az yağ qalıb".**

# Müharibənin Azərbaycana ilginc yan təsiri - ərzaq bazarımızda boşluq yaranacaqmı?




Satıcıların sözlərinə görə, İrandan yeni məhsullar gəlməsə, qiymət artımı qaçılmazdır. Ən çox artım düyü, yağ və xurma kimi məhsullarda gözlənilir. Digər sahibkar Bahal Bayramov da müharibə səbəbilə məhsul gəlmədiyini söyləyib: "Həm də özləri də mal satmırlar. Deyirlər ki, özümüz üçün saxlayırıq. Bu da bizim bazara təsir edir. Ən ucuz bazar İranındır. Biz ucuzluğa görə işləyirik, baha olsa, işləyə bilmərik. Belə getsə, 10 günə heç İran məhsulu tapılmayacaq".

"Yeni Müsavat"ın əməkdaşının apardığı müşahidələr göstərib ki, münaqişə dayansa da, İrandan idxal olunan malların qiymətində ciddi bahalaşma qeydə alınmaqdadır. Qeyd edək ki, İranın Azərbaycana ixracında əsas yeri ərzaq və əhalinin gündəlik istifadəsində mühüm yer tutan mallar üstünlük təşkil edir. 2024-cü ildə İranla Azərbaycan arasında qarşılıqlı ticarət dövriyyəsi 647,1 milyon dollara çatıb. Bu, 2023-cü ilə nisbətən 159,7 milyon dolları və ya 32,8 faiz çoxdur. Ötən il Azərbaycan İrana cəmi 14 milyon ABŞ dolları dəyərində məhsul ixrac edib. İrandan məhsul idxalı isə illik müqayisədə 160 milyon ABŞ dolları və ya 33,8 faiz artaraq 633 milyon dollara çatıb.

İrandan idxaldakı artım bu il də davam edir. Belə ki, Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, bu ilin dörd ayında İrandan idxalımız 178 milyon 900.70 min dollara, bu ölkəyə ixracımız isə cəmi 4 milyon 526.61 min dollara bərabər olub. Bir ay sonra - mayın sonuna idxalımız 251 milyon 878.05 min dollara, ixracımız isə 6 milyon 86,84 min dollara yüksəlib. Beş aylıq göstəriciləri bir il əvvəlkilərlə müqayisə etsək, görərik ki, İrana ixracımız 233 min dollar azaldığı halda, idxalımız 19,8 milyon dollar artıb.

Yuxarıda da qeyd etdik ki, İrandan idxalın əsas hissəsi qida və gündəlik istehlak mallarıdır. Bir sıra mühüm ərzaq məhsullarının idxalında İranın payı 60-70 faizə, bəzən 90-100 faizə çatır. Dövlət Statistika Komitəsinin aylıq xarici ticarət hesabatından aydın olur ki, bu ilin yanvar-aprel aylarında Azərbaycana idxal olunan 4 milyon 663,48 min dollarlıq 1117,56 ton təzə alabalığın hamısı, 689,36 ton təzə və ya soyudulmuş karpın 312,3 tonu, 34,75 ton təzə və ya soyudulmuş digər balığın hamısı, 93,78 ton təzə və ya soyudulmuş balıqlar, digərlərinin hamısı, qatılaşdırılmamış, şəkər əlavə edilmədən, tərkibində 1-6 kütlə faiz yağ olan süd və qaymaq - 2561,06 tonun 1115,3 tonu, qatılaşdırılmamış, şəkər əlavə edilmədən, tərkibində 10 kütlə faizdən çox yağ olan netto həcmi 2 litrdən artıq olmayan bağlamalarda süd və qaymaq 885,96 tonun 691,28 tonu, şəkər əlavəsi olan, toz, dənəvərlər halında, tərkibində 1,5 kütlə %-dən çox yağ olmayan süd və qaymaq 1450,56 tonun 953,72 tonu, şəkər əlavə edilmədən, toz, dənəvərlər halında, tərkibində 1,5 kütlə %-dən çox yağ olan süd və qaymaq 413,5 tonun 197 tonu, qatılaşdırılmış digər süd və qaymaq 468,38 tonun 34 tonu, kərə yağı 7157,57 tonun 2880,72 tonu, süd pastaları 1745,49 tonun 1699 tonu, digər pendirlər 2155,02 tonun 1314,26 tonu, digər təzə və ya soyudulmuş kartof 82836,25 tonun 1794,51 tonu, təzə və ya soyudulmuş pomidor 1131,19 tonun 451,34 tonu, Şalğamaoxşar soğan, səpmə soğan, soğan-şalot, təzə və ya soyudulmuş 12825,08 tonun 4187,99 tonu, gül kələm 53,87 tonun 53,77 tonu, təzə və ya soyudulmuş kələm, ağbaş, qırmızıbaş və digər kələmlər 4369,32 tonun 4079,08 tonu, Baş salat-kahı (baş kələm salatı), təzə və ya soyudulmuş 544,47 tonun hamısı, Digər salat-kahı, təzə və ya soyudulmuş 31,24 tonun 30,88 tonu, təzə və ya soyudulmuş yerkökü və şalğam 2934,02 tonun 2933,14 tonu, xiyar və kornişonlar, təzə və ya soyudulmuş 2151,39 tonun 2150,74 tonu, təzə və ya soyudulmuş badımcan 4782,95 tonun 4704,75 tonu, digər kərəviz, kök kərəvizdən başqa, təzə və soyudulmuş 50,42 tonun hamısı, Capsicum növünün və ya Pimenta növünün barı (qabıqlı şirin bibər və digərləri), təzə və ya soyudulmuş 4954,33 tonun 4804,59 tonu, Salat tərəvəzi, salat-kahıdan və kasnıdan başqa və digərləri 816,44 tonun 806,38 tonu, qabıqlı püstə 147,2 tonun 105,06 tonu, təzə və ya qurudulmuş xurma 4226,75 tonun 2966,24 tonu, təzə və ya qurudulmuş portağal 11573,68 tonun 9577,52 tonu, qurudulmuş üzüm 1996,02 tonun 1020,11 tonu, 336,73 ton qarpızın 329,6 tonu, təzə 21,46 tonun hamısı, təzə heyva 43,65 tonun 33,05 tonu, təzə kivi 2198,04 tonun 2126,5 tonu, qurudulmuş digər meyvələr 1021,97 tonun 515,38 tonu, şirin quru peçenye 6223,66 tonun 2404,24 tonu, sirkəsiz hazırlanmış və ya konservləşdirilmiş digər pomidorlar 1789,2 tonun 1629,44 tonu, digər meyvələrdən cemlər, meyvə jelesi və mürəbbələr, meyvə püreləri və pastaları 700,04 tonun 240,43 tonu İrandan alınıb.

İrandan həmçinin ədviyyat, şokolad və şokoladlı məmulatlar, qənnadı məmulatları, çörək-bulka məmulatları və digər ərzaq məhsulları idxal olunur.

Cənub qonşudan idxalın digər əsas komponenti kütləvi istehlak mallarıdır. Bura maye və quru sabundan, qadınlar üçün kosmetik vasitələrdən tutmuş aftava və dəsmala, uşaq oyuncaqlarından tutmuş geyimlərə qədər çoxçeşidli məhsullar aiddir. Bunlardan əlavə, İrandan müxtəlif tikinti materialları, keramika-qranit məhsulları, divar kağızı və digər materiallar da idxal olunur.

Onu da qeyd edək ki, Azərbaycanın ərzaq bazarı idxaldan ciddi şəkildə asılı olduğuna görə idxal bazarlarındakı dəyişiklik qısa müddətdə bizim pərakəndə satışa təsir edir. Son aylarda qlobal ərzaq bazarında gedən bahalaşma fonunda ölkəyə ərzaq məhsullarının idxalında artım prosesinin sürətlənməsi müşahidə olunur. Rəsmi statistikadan aydın olur ki, yanvar-may aylarında Azərbaycanın ümumi idxalındakı artımda üçüncü böyük pay ərzaq məhsullarındadır. Belə ki, yanvar-may aylarında Azərbaycana ümumilikdə 1 milyard 64 milyon 125.93 min dollarlıq yeyinti məhsulları idxal olunub. Bu, 953 milyon 361.86 min dollarlıq idxalın qeydə alındığı ötən ilin beş ayından 11,6 faiz çoxdur.

Ərzaq məhsulları arasında idxalı ən çox artan kərə yağı və süddən hazırlanmış digər yağlar (54 milyon 161.54 min dollar dəyərlə 10 394.15 tondan 80 milyon 494 min dollar dəyərlə 11 458.27 tona qədər), buğda (72 milyon 676.29 min dollar dəyərlə 328 542.75 tondan 110 milyon 435.55 min dollar dəyərlə 510 430.79 tona), süd və qaymaq (8 milyon 637.79 min dollar dəyərlə 5 584.37 tondan 11 milyon 358.76 min dollar dəyərlə 7 004.87 tona ) və digər məhsullardır.

İrandan idxal olunan məhsulların digər ölkələrdən alınanlarla müqayisədə qiymət ucuzluğu əhalinin aztəminatlı təbəqəsinin həmin məhsullardan daha çox istifadə etməsinə səbəb olur. Xüsusilə kərə yağı, yuyucu vasitələr, plastik və şüşə qablar, tekstil məhsulları ilə bağlı belə asılılıq böyükdür. Məsələn, Avropa ölkələrindən idxal olunan kərə yağlarının qiyməti 23-28 manat aralığında dəyişdiyi halda, İrandan gətirilən yağlarda bu, 14-18 manat arasındadır. Bu qiymət fərqinə görə aztəminatlı ailələr bir qayda olaraq İran yağlarına üstünlük verirlər. Eyni vəziyyət digər məhsullarda da mövcuddur. Buna görə də həmin məhsulların idxalının dayanması, yaxud kəskin məhdudlaşması ilk növbədə aztəminatlı ailələr üçün problemlər yaradacaq.

Diqqət yetirmək lazımdır ki, 12 gün davam edən münaqişə zamanı İsrail əsasən İranın nüvə və digər hərbi obyektlərinə zərbələr endirib. Yəni mülki obyektlər, xüsusilə emal və istehsal müəssisələrinə toxunulmayıb. Bu baxımdan, İranın ərzaq, kimyəvi və digər məhsul istehsalı potensialı demək olar ki, zərər görməyib. Ölkənin hərbi müəssisələrinin və arsenalının böyük ölçüdə məhv edilməsi İranda digər sahələrdə istehsalı və ixracı artırmaq zərurəti yaradır. Buna görə də münaqişə müddətində ixraca tətbiq olunan məhdudiyyət qısa müddətdə aradan qaldırılacaq. Bütün bunlar ondan xəbər verir ki, Azərbaycan bazarında satılan İran məhsullarının bahalaşması üçün real əsas yoxdur.

Ümid edirik ki, müvafiq dövlət qurumları əsassız bahalaşmaya yol verilməməsi üçün zəruri olan nəzarət tədbirlərini gücləndirəcəklər.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Uşaq və gənclərin fiziki-mənəvi inkişafı

# Uşaqları uşaq bağçasından kimlər uzaqlaşdırır?

## Dövlət, yoxsa özəl uşaq bağçaları arasında seçimi aktual edən səbəblər

**"Yeni tikilən hər binada məktəbəqədər təhsil müəssisələri olmalıdır". Xəbər verdiyimiz kimi, bu sözləri deputat Siyavuş Novruzov parlamentin iyunun 24-də keçirilən iclasında deyib.**

Deputat bildirib ki, bu gün məktəbəqədər təhsil müəssisələrinin sayı azdır. "Hazırda ölkədə 1700-ə yaxın məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir, onların bir qismi özəldir. Yeni tikilən hər yaşayış binasında belə müəssisələrin yaradılması vacibdir. Ailəni dolandırmaq üçün adətən hər iki valideynin işləməsi lazım gəlir və bu zaman uşaqların yerləşdirilməsi və təhsili xüsusi əhəmiyyət kəsb edir", - deputat əlavə edib.

### Niyə uşaqları bağçaya buraxmırlar?

Azərbaycanda məktəbəqədər yaşlı uşaqların yalnız 35 faizə yaxını bu təhsil xidməti ilə əhatə olunub. Bu barədə **Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov** mediaya açıqlamasında bildirib. "Son illərdə əhatəlilikdə xeyli irəliləyişlər olsa da, arzulanan səviyyədən uzağıq. Hazırda alternativ modellər üzərində işləyirik. Hədəfimiz 2026-cı ilə qədər bu rəqəmi 50%-ə çatdırmaqdır", - o qeyd edib.

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Rasif Dünyamalıyev isə mediaya bildirib ki, məktəbəqədər müəssisələrdə təhsil alan uşaqların sayını artırmağın əsas yolu bütün dünyada istifadə olunan dövlət-özəl sektor əməkdaşlığıdır: "Azərbaycanda artıq bu fəaliyyətə başlanıb. Bu ilin iyun ayında özəl bağçalar üçün qrant proqramı elan edildi. Həmin proqrama əsasən dövlət bağçalarında yer olmadıqda növbədə gözləyən uşaqlar özəl bağçalara yönləndiriləcək. Hazırda 650-dən çox uşaq layihə çərçivəsində özəl bağçalara yerləşdirilib. Hazırda ən uyğun variant budur. Amma Azərbaycanda özəl uşaq bağçalarının çox olmaması bu saya ciddi təsir edə bilməməsinə səbəb olur. Toplamda 148 özəl uşaq bağçası var və onların əksəriyyəti Bakıda yerləşir. Bundan başqa da onların əksəriyyəti özləri fəaliyyət göstərdikləri üçün dövlət tərəfindən yönləndirilən uşaqlara ehtiyac duymur. Dolayısıyla dövlət özəl uşaq bağçalarının açılmasını təşviq etməlidir. Özəl bağçaları çoxalmalıdır ki, dövlət oraya uşaq göndərə bilsinlər. Özəl bağçaların sayı artmasa, dövlət proqramı genişləndirsə belə, istədiyi nəticəni əldə edə bilməyəcək. İlkin mərhələ üçün 1500 uşağın özəl bağçalara göndərilməsi nəzərdə tutulmuşdu. 100 uşaqlı bağçada 80 yer dövlətə verilsə, təqribən 20 uşaq bağçası edir. Gələn bu say 5000 nəzərdə tutulub, bu isə təqribən 55 bağça edir ki, real deyil. Çünki həmin bağçalar hazırda işləyir, çoxunda yerlər doludur. Dövlət hazırda yeni bağçaların açılması üçün özəl bağçaları dəstəkləməlidir. Bu bağçaların xüsusilə regionlarda açılması üçün şərait yaradılmalıdır. Burada problem mövcuddur, bunu yəqin ki, Elm və Təhsil Nazirliyi nəzərə alacaq, yeni bağçaların açılması üçün lisenziya şərtlərini yüngülləşdirəcək və sahibkarları təşviq edəcək".

**O qeyd edib ki, məktəbəqədər yaşda olan uşaqların təhsilini genişləndirmək üçün ikinci model ailə tipli təlim qruplarıdır:** "Bu model Azərbaycanda indiyə qədər təbiq olunmayıb. 2017-ci ildən "Məktəbəqədər təhsil haqqında" Qanunda bu var. Hətta bununla bağlı Nazirlər Kabinetinin qərarı da var. Amma indiyə qədər icra olunmayıb. Burada məktəbəqədər təhsi üzrə təhsili olan müəllim yaxınlığında olan 5-6 uşaqla öz evində məşğul olur. Ailə tipli təlim qrupları çox unikal layihədir. İcmalarda bunun həyata keçirilməsi çox rahatdır. Sadəcə olaraq, burada müəllim öz evini Elm və Təhsil Nazirliyinin standartlarına uyğunlaşdırmalıdır. Əgər normativlər qəbul edilsə, prosedurlar müəyyən olunsa, düşünürəm ki, yaxın günlərdə bununla bağlı elanlar verilə bilər. Bu xüsusilə kənd yerlərində fayda verə bilər. Çünki kəndlərdə bağça açmaq çətindir, amma ehtiyacı olan 5-10 uşaq üçün ailə tipli təlim qrupları təşkil etmək mümkündür".

### Bağçaya getməli uşaqların sayı 650 min, gedənlər 120 min...

**Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini Fariz İsmayılzadə** "Təhsil haqqında" və "Məktəbəqədər təhsil haqqında" qanunların müzakirəsi zamanı bildirib ki, Azərbaycanda hazırda məktəbəqədər uşaqların sayı 650 minə çatıb. Həmin 650 min uşaqdan yalnız 120 mini dövlət məktəbəqədər təhsil müəssisələrində təhsil ala bilir. O bildirib ki, digər uşaqlar ya bu prosesdən uzaqda qalırlar, ya da özəl bağçalarda, kurslarda təhsil alırlar:

"Biz bu rəqəmləri kütləvi olaraq artırmalıyıq. Bizim milli strategiyamızda məqsəd qoyulub ki, məktəbəqədər hazırlıq əhatəsi 50% olsun, amma eyni zamanda qeyd etməliyəm ki, BMT standartlarına görə, bu, ölkələrdə 90% olmalıdır. Təəssüf ki, biz bu rəqəmlərə çata bilməmişik. Bu qanunlara təklif olunan dəyişiklik əhatəni artırır və özəl kursları da bu



prosesə cəlb edir. Eyni zamanda təklif edirəm ki, biz Bakıda bağçaların, kursların sayını artırmaq istəyiriksə, yenidən tikinti standartlarına baxmalıyıq. Çünki sovet dövründə qəbul olunmuş tikinti standartları müasir məktəbəqədər təhsil müəssisələrinin və hazırlıq mərkəzlərinin inkişafına məhdudiyyətlər yaradır".

### Hansı daha üstündür? - dövlət, ya özəl uşaq bağçaları?

Bu gün ölkəmizdə olan 1 844 məktəbəqədər təhsil müəssisəsinin 1 696-i dövlət, 148-i özəldir. Özəl məktəbəqədər təhsil müəssisələrinin daha çox hissəsi körpələr evidir. Körpələr evlərinin sayı 80, uşaq bağçalarının sayı isə 68-dir. Özəl bağçaların əksəriyyəti yeni tikili olan yaşayış binaların aşağı mərtəbəsində yerləşir. Onların heç bir kvadratmetr də həyətyanı sahəsi olmur. Lakin dövlət uşaq bağçaları xüsusi layihə ilə tikildiyindən onların həyəti də olur ki, uşaqlar burada qoyulan əyləncə qurğularında əylənir, təmiz hava ala bilirlər. Özəl uşaq bağçaları isə bu üstünlükdən kənardır.

Ekspertlər dövlət və özəl uşaq bağçaları arasındakı fərqlər barədə xeyli nüanslara toxunur. Özəl uşaq bağçalarında yemək menyuları rəngarəngdir. Lakin dövlət uşaq bağçaları bu məsələdə bir qədər geridə qalır. Çünki özəl bağçalara valideyn yüksək məbləğdə ödəniş edir, dövlət uşaq bağçaları isə ödənişsizdir. Məhz bu amil deyilənləri təsdiq edir.

Yataq, əyləncə məsələlərinə gəlincə, bu sahədə üstün dövlət uşaq bağçaları da var, özəl bağçalar da. Yəni bu bağçanın müdiriyyəti tərəfindən işin qurulmasından birbaşa asılıdır.

Təhsil məsələsinə gəlincə, hər iki tip bağça təhsil verir. Lakin dillərin öyrədilməsi özəl bağçalarda daha yaxşı təşkil olunur. Çünki özəl bağçalar öz üstünlüyünü bu nəticə ilə qorumağı qarşısına məqsəd qoyur. Lakin burada ən vacib məsələlərdən birinə də toxunmalıyıq ki, özəl bağçaların bəzilərində Azərbaycan dili bölməsi yoxdur. Bu isə o deməkdir ki, gələcəyimiz olan uşaqlar ana dilində mükəmməl danışa bilməyəcək.

Dövlət uşaq bağçalarında isə Azərbaycan dili ilə yanaşı, rus, ingilis dilləri tədris olunur. Uşaqlar öz dilləri ilə yanaşı, digər dilləri də mənimsəyir.

Etiraf edək ki, bu gün Azərbaycanda uşaq bağçalarının sayı azdır. Bağça yaşına çatmış uşaqların yalnız 25 faizə qədəri prosesə cəlb oluna bilir. Dövlət büdcəsindən bu sahəyə kifayət qədər vəsait ayrılır. Uşaqların məktəbəhazırlıq qrupuna, uşaq bağçalarına, körpələr evinə getməsi onların təhsil aldığı müddət ərzində akademik göstəricilərinin daha yaxşı olmasına gətirib çıxarır. Uşaqların nəticələri gələcəkdə daha yaxşı olur. Həmçinin uşaqlar bağçalara getdikdən sonra valideynlərin əmək qabiliyyəti də artır. Həm uşaqların təlim-tərbiyəsi, tədrisin təşkili, psixoloji dayanıqlılığı və digər müsbət xarakterik xüsusiyyətlər var. O ərazilərdə ki uşaq bağçaları azdır və yaxud yoxdur, ancaq uşaq var, bu zaman onlar dövlət büdcəsinin vəsaiti hesabına pulları özəl uşaq bağçalarına ödəyəcək.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

# İmtahan verəcək abituriyentlərin nəzərinə!

**Dövlət İmtahan Mərkəzi (DİM) iyulun 6-da II və III ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanları keçirəcək.**

DİM-dən Musavat.com-a bildirilib ki, imtahanlar Bakı, Xankəndi, Naxçıvan, Gəncə, Şəmkir, Ağstafa, Qazax, Sumqayıt, Abşeron, Şamaxı, Mingəçevir, Şəki, Zaqatala, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Cəlilabad, Masallı, Quba və Xaçmazda təşkil olunacaq. Abituriyentlər imtahana buraxılış vərəqəsini çap edə bilərlər.

İmtahan iştirakçıları dim.gov.az saytı ilə yanaşı, my.gov.az portalı və ya mygov mobil tətbiqi vasitəsilə də DİM-in "Namizədlərə imtahana buraxılış vərəqələrinin internet vasitəsilə verilməsi" xidmətindən istifadə edə bilərlər. Buraxılış vərəqəsində imtahanın keçiriləcəyi tarix, şəhər (rayon), bina, zal, başlanma vaxtı və abituriyentin imtahan binasına gəlmə vaxtı və s. məlumatlar qeyd olunub.



Abituriyentlər imtahana aşağıda qeyd olunan sənədləri gətirməlidirlər:

- imtahana buraxılış vərəqəsi;

- şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

Qeyd edək ki, imtahanlar saat 10:00-da başlanacaq. Saat 09:45-dən sonra gələn iştirakçılar imtahan binasına buraxılmayacaqlar.

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

İmtahan qaydaları ilə daha ətraflı "Yaddaş kitabçası"nda tanış olmaq mümkündür.

III ixtisas qrupuna aid DT və TC altqruplarının hər ikisini seçənlər üçün coğrafiya fənni üzrə əlavə imtahan iyulun 13-də keçiriləcək və həmin imtahan üzrə buraxılış vərəqəsi növbəti həftəsonu DİM-in saytına yerləşdiriləcək.

MÜSAVAT
N 109 (8719) 26 iyun 2025



## Ağ Ev işdən çıxarılan işçiləri geri qaytarır

**ABŞ administrasiyası Milli Təhlükəsizlik Şurasının (MTŞ) genişmiqyaslı ixtisarından sonra işçilərinin bir hissəsini bərpa etmək qərarına gəlib. Musavat.com "Bloomberg"ə istinadla xəbər verir ki, Ağ Ev ABŞ Prezidenti Donald Tramp tərəfindən aparılan əhəmiyyətli ixtisardan bir neçə həftə sonra MTŞ üçün əlavə işçi qəbul etməyə başlayıb.**

Kadr dəyişiklikləri Mayk Uols bu vəzifədən istefa verdikdən sonra müvəqqəti olaraq milli təhlükəsizlik üzrə müşavir vəzifəsində çalışmış dövlət katibi Marko Rubionun əmri ilə edilir. Uolsun gedişindən sonra şura üzvlərinin əksəriyyəti işini itirib və Tramp MTŞ-nin xarici siyasətin formalaşmasına təsirini məhdudlaşdırmağa çalışıb.

Agentliyin mənbələrinin bildirdiyinə görə, işdən çıxarılan bəzi mütəxəssislərə əvvəlki vəzifələrinə qayıtmaq təklifi gəlib.

"Bloomberg" ekspertlərinin fikrincə, bu qərar onu göstərir ki, Tramp administrasiyası xarici siyasət vəzifələrinin öhdəsindən gəlmək üçün əlavə kadrlara ehtiyac duyur. Çinlə münasibətlərin pisləşməsi, Qəzza zolağında davam edən qarşıdurma, Amerika və İsrailin İrana zərbələrinin nəticələri, eləcə də Ukraynadakı hərbi əməliyyatlar MTŞ-nin işinə yeni kadrların cəlb edilməsini zəruri edir.

Qeyd edək ki, dövlət strukturlarında kütləvi ixtisarlar Trampın sabiq müşaviri İlon Maskın təşəbbüsü ilə həyata keçirilmişdi. Mask bununla dövlət vəsaitinə qənaət etməyi düşünürdü.

❑ **Nigar HƏSƏNLİ,
"Yeni Müsavat"**



## Dağıstanın dövlət katibini "ilişdirdilər" - ona görə 40-dan çox ünvanda axtarış aparılıb

**Dağıstanda respublikanın dövlət katibi Maqomed-Sultan Maqomedov axtarışa verilib. "Yeni Müsavat" Rusiya mediasına istinadla xəbər verir ki, o və qohumları "Dağneftebaza"nın özəlləşdirilməsi ilə bağlı axtarılır.**

İstintaq hərəkətləri respublikanın dövlət katibi, həmçinin Mahaçqalanın "Anji" futbol klubunun təsisçisi və keçmiş prezidenti olan Maqomed-Sultan Maqomedovun yaşadığı yerdə, eləcə də onun ən yaxın qohumlarına məxsus məkandlarda, 40-dan çox ünvanda aparılıb. Bundan başqa, onun respublika hökumətinin binasındakı kabinetində də axtarış həyata keçirilib.

İlkin məlumatlara görə, hadisələr "Dagneftebaza"nın guya qanunsuz özəlləşdirilməsi işi ilə bağlı ola bilər. Hələlik bu məsələ ilə bağlı heç bir rəsmi açıqlama daxil olmayıb.

Maqomedovun artıq saxlanıldığı bildirilir. Onun Moskvada məxfi mənzilinin tapıldığı barədə də xəbərlər var.

Qeyd edilir ki, "Dagneftebaza"nın qanunsuz özəlləşdirilməsi və onun fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması işi ilə bağlı hazırda təsdiqlənən rəsmi məlumat yoxdur.

Məlumdur ki, 2021-ci ildə Dağıstan Respublikasının dövlət katibi təyin olunana qədər o, 15 ildən artıq "Dagneftebaza" şirkətinin baş direktoru vəzifəsində çalışıb. Bu baza əvvəllər dövlətə məxsus olub, 2005-ci ildə özəl mülkiyyətə keçib.

Maqomed-Sultan Maqomedov 2021-ci ildən dövlət katibi vəzifəsini tutur.

❑ **Xalidə GƏRAY,
"Yeni Musavat"**

# Gözlər yenidən Ukraynada: Tramp atəşi kəsə bilməsə...

**İsrail-İran arasında atəşkəsdən sonra nəzərlər yenə Ukrayna cəbhəsinə yönəlib. Son iki həftə ərzində Rusiya Kiyevdə yalnız dinc insanları qətlə yetirməklə diqqət çəkir, hərbi əməliyyatların gedişində dönüş müşahidə olunmur.**



Bəzi analitiklərə görə, ABŞ lideri Tramp İsrail-İran atəşkəsindən sonra yenidən Rusiya-Ukrayna məsələsinə qayıdacaq. Ancaq o, hər hansı nəticə əldə edə biləcəkmi? Yaxın Şərqdə gedən müharibənin dayanması Putinə sərf edirmi? İran yenə Rusiyaya kömək edəcəkmi?

Rusiya xarici işlər naziri Sergey Lavrov deyib ki, Qərb və Ukrayna ilkin şərt olmadan dərhal atəşkəs üçün yalvarırlar. "Bu, bir neçə il əvvəl Zelenskinin qəti şəkildə imtina etdiyi atəşkəsdir", - nazir qeyd edib.

Bu arada Ukrayna gələn il 35 milyard avrodan çox əlavə təhlükəsizlik yardımı alacaq. NATO-nun baş katibi Mark Rutte alyansın Haaqada baş tutacaq illik sammiti ərəfəsində keçirdiyi mətbuat konfransında deyib.

Rutte vurğulayıb ki, Tramp administrasiyasının müharibə şəraitində olan ölkənin alyansa qoşulmayacağı barədə açıq bəyanatlarına baxmayaraq, Ukraynanın NATO-ya üzvlük yolu "dəyişməz" olaraq qalır.

**Siyasi şərhçi Heydər Oğuz** "Yeni Müsavat"a deyib ki, istər Ukrayna-Rusiya, istər İsrail-İran, istərsə də Yaxın Şərqin müxtəlif ölkələrində son zamanlara qədər baş verən qanlı hesablaşmalar eyni müharibənin müxtəlif cəbhələridir: "Bunu sübut edən başlıca dəlil bütün istiqamətlərdə eyni dövlətlərin qarşı-qarşıya gəlməsidir. Məlumdur ki, Ukrayna savaşından əvvəl Rusiya və İran Suriyada ABŞ və ona bağlı qüvvələrlə üz-üzə dayanmışdılar. Bu cəbhədə əsasən İran, Əsəd rejimi və Rusiya ilə ABŞ-yə, Türkiyəyə bağlı proksi qüvvələr çarpışırdılar. Rusiyanın Ukraynaya yaxşı düşünülməmiş müdaxiləsindən sonra cəbhə xətti böyüdü və Rusiya Suriyadan çıxmaq məcburiyyətində qaldı. Nəticədə Suriyada təklənmək perspektivi ilə üzləşən İran da şələ-şüləsini tələsik yığışdırıb "qınına" çəkildi. İran Suriya və digər "müqavimət oxu" adlandırdığı coğrafiyalara özünün təhlükəsizliyinin və müdafiəsinin ən uc postu, sərhəd zastavası kimi baxırdı. Adətən sərhəd zastavasından çəkilirsənsə, deməli, hücumu öz ərazinə daşıyır və ya bu perspektivlə razılaşırsan. Gözlənilən kimi də oldu. Cəbhənin əks tərəfi İranın son postunu təmizlədikdən sonra İsrail İranı bombardmana tutdu. Beləcə, Rusiya-İran ittifaqı ilə ABŞ-İsrail alyansı arasında müharibənin yeni mərhələsi başladı; proksilərin yerini real düşmən qüvvələri tutdu. İsrail-ABŞ alyansı İranın hava məkanına nəzarət baxımından ciddi üstünlük qazanmaqla və bir sıra nüvə obyektlərini sıradan çıxarmaqla qarşıya qoyduqları minimum hədəflərini reallaşdırmış oldular. Bundan sonra savaşın növbəti mərhələsinə hazırlaşmaq və digər cəbhədə də vəziyyəti arzuladıqları səviyyəyə gətirmək lazımdır. Sözsüz ki, burada söhbət Ukrayna cəbhəsindən gedir".

**Heydər Oğuzun fikrincə, ABŞ və İsrail ittifaqı diqqəti əsasən İrana yönəltdikləri üçün Ukrayna cəbhəsini boş buraxmışdılar:** "İran 12 günlük savaşın son günlərində İsraili ağır bombardmana tutmaqla ona çox ciddi zərərlər yetirdi. Nəticədə ABŞ özünün ağır bombardman təyyarələrini işə salaraq Tehrana böyük göz dağı verdi və onu atəşkəsə getməyə məcbur etdi. Atəşkəsin NATO-nun Haaqa sammiti başladığı gün elan olunması da təsadüfi deyildi. Məlumdur ki, Haaqa sammitinin gündəliyində dayanan əsas məsələlərdən biri də Ukraynaya hərbi dəstəyin verilməsi idi. Məhz buna görə də Ukrayna Prezidenti Zelenski də tədbirə dəvət olunmuş və alyansın toplantılarından birində çıxış edərək NATO müttəfiqlərini Ukrayna ilə təhlükəsizlik sahəsində əməkdaşlığı artırmağa çağırmışdı.

NATO sammitindən gələn xəbərlər Donald Trampla Zelenski arasında əsən sərin küləklərin hələ də səngimədiyini göstərir. Bildirildiyinə görə, NATO rəhbərliyi yeni insidentlərin çıxmaması üçün bacardıqları qədər Zelenski ilə Trampın üz-üzə gəlməməsinə çalışırlar. Bununla belə, Tramp administrasiyasının Ukraynanı tamamilə tək və köməksiz qoymaq istəmədiyi də bildirilir. Trampın NATO-nun Avropa qərargahının baş komadanlığına namizəd kimi təqdim etdiyi general-leytenant Aleksus Qrinkeviç ABŞ Senatında hesabat verərkən Ukraynanın qalib gələ biləcəyindən danışıb və ona mütləq yardım edilməsinin vacibliyini vurğulayıb. Bu fakt Trampın Ukrayna müharibəsinə dəstək verəcəyinə işarədir. Onun hazırda bu kimi məsələlərdə ləng tərpənməsi Ukrayna-Rusiya savaşının xərcini Avropa ölkələrinin çiyninə qoymaq niyyəti ilə izah oluna bilər".

**Haaqa sammitində NATO müttəfiqlərinin 2035-ci ilə qədər ÜDM-in 5%-ni hərbə ayırmaq barədə qərar qəbul etməsini təsadüfi saymayan siyasi şərhçi vurğulayıb ki, bu tarix həm də bloklararası müharibənin son tarixini də göstərə bilər:** "Məlumdur ki, NATO Qərb dövlətləri tərəfindən əsasən Rusiyaya qarşı özünümüdafiə üçün qurulub. Məntiqlə, alyansın hansısa tarixə qədər hərbi büdcəsini artırması barədə düşünməsi həm də onun Rusiyanın o zamanadək təhdid obyekti kimi qalacağına inamını əks etdirir. Daha aydın təbirlə desək, NATO ölkələri hələ 10 il Rusiya ilə uğraşacaqlarına inanırlar. Sözsüz ki, Rusiyaya qarşı dirənişin ön cəbhəsində Ukraynanın dayanması Şimali Atlantika alyansı üçün böyük nemət olardı. Məhz buna görə də Ukrayna dəstəklənməli, Rusiya ilə daha aktiv mübarizəyə həvəsləndirilməlidir. Xatırladım ki, Almaniyanın xarici kəşfiyyat idarəsinin prezidenti də Ukraynanın ən azı 5 il Rusiyaya qarşı vuruşmasının alman milli maraqları baxımından həyati əhəmiyyət daşıdığını vurğulamışdı".

**Heydər Oğuzun fikrincə, Avropa ölkələrinin Haaqa sammitində üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməsi o qədər də asan olmayacaq:** "Xatırlayırsınızsa, 2014-cü ildə NATO-nun Uels sammitində üzv ölkələri hərbi büdcələrini ÜDM-i 2%-ə qədər artırmağı qəbul etmişdilər. Bu qərar barədə ancaq Rusiyanın 2022-ci ildə Ukraynanı işğal edəndən sonra ciddi-ciddi düşünməyə başladılar. Bununla belə, müttəfiqlərinin təxminən üçdə biri hələ də öz öhdəliklərini yerinə yetirmir. 5% öhdəliyi isə daha çətindir. Faktlar göstərir ki, rifah həyatına alışmış Avropa ölkələri yalnız təhlükəni öz dərilərində hiss edəndə hədəflənən qərarı alırlar. Görünür, Tramp hakimiyyəti də məhz bu səbəbdən Ukraynanı lazımi səviyyədə dəstəkləmir, rus xofunu Avropaya daddırır. Məqsəd həm də Avropanı silahlanmağa həvəsləndirərək ABŞ-ın silah maqnatlarının maraqlarını təmin etməkdir. Çünki avropalılar öz silahlarını ABŞ-ın müdafiə sənayesindən almağa məcburdurlar. Fikrimcə, istər İran müharibəsinin ən kritik zamanda dayandırılması, həm də Ukrayna probleminin böyüdülməsi silah maqnatlarının maraqlarına xidmət edir. Region ölkələrində fars və rus xofu gücləndikcə, istər Yaxın Şərq, istərsə də Avropa ölkələri ABŞ müdafiə sektorunun cibini dolduracaqlar. Bunun üçün isə həm İran, həm də Ukrayna öz mövcudluğunu qorumalıdır".

❑ **Elşən MƏMMƏDƏLİYEV,
Musavat.com**

**Milli Məclisin son iclasında "Təhsil haqqında" və "Məktəbəqədər təhsil haqqında" qanunlara dəyişiklik layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb. Layihə barədə deputatlara məlumat verən Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov təklif olunan dəyişikliklərin məzmununu açıqlayıb.**



# "Bəzi özəl mərkəzlərdə təhsil haqqı aylıq 7000 manata qədər yüksəlir" - təhsil eksperti deyir ki...

Müzakirələr zamanı çıxış edən komitə üzvü Siyavuş Novruzov ölkədə məktəbəqədər hazırlıq sahəsindəki problemlərə diqqət çəkib. Deputat qeyd edib ki, hər binanın aşağısında əlçatan və münasib qiymətli məktəbəqədər hazırlıq mərkəzləri yaradılmalıdır: "Əksər hallarda hər iki valideyn işləyir. İnsanlar uşaqlarını uzaq məsafəyə aparmaq və ya ələvə nəqliyyat xərci çəkmək məcburiyyətində qalırlar. Ona görə də mağaza və gözəllik salonlarının əvəzinə, yaşayış binalarının altında məktəbəqədər mərkəzlər açılmalıdır".

**Siyavuş Novruzov bəzi özəl məktəbəqədər mərkəzlərin tələb etdiyi yüksək qiymətləri də sərt şəkildə tənqid edib:** "Hazırda elə özəl məktəbəqədər hazırlıq mərkəzləri var ki, aylıq 7000 manat pul istəyirlər. Mən elə bir mərkəz tanımıram ki, bu məbləğə uyğun təhsil versin. Azərbaycanda kim var ki, uşağına ayda 7000 manat versin? Üstəlik, hər evdə bir yox, iki uşaq ola bilər".

Deputat belə mərkəzlərin fəaliyyətinə nəzarətin gücləndirilməsinin vacib olduğunu vurğulayıb.

Bəs təhsil ekspertlərinin bu məsələyə mövqeyi necədir? Deputat Siyavuş Novruzov haqlıdırmı?

**Təhsil eksperti Kamran Əsədov** mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb. Ekspert qeyd edib ki, Azərbaycanda məktəbəqədər təhsilin əlçatanlığı və keyfiyyəti sahəsində mövcud vəziyyət struktur, sosial və iqtisadi problemlərlə yüklənib. Ölkədə uşaq bağçalarına və məktəbəqədər hazırlıq mərkəzlərinə olan tələbat hər il artsa da, təklifin bu artıma adekvat cavab verməməsi ailələrin həyatında ciddi çətinliklər yaradır:

"Xüsusilə şəhər mühitində, valideynlərin hər ikisinin işlədiyi ailələrdə uşaqların gündəlik qayğısı və təlimi üçün münasib, yaxın və keyfiyyətli alternativlərin azlığı onları ya qeyri-formal baxıcılara, ya da yüksək ödənişli özəl mərkəzlərə yönləndirir. Bu vəziyyət isə cəmiyyətin böyük bir hissəsi üçün həm sosial ədalətsizlik, həm də təhsil hüququnun pozulması ilə nəticələnir.

Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunun 19.1-ci maddəsinə əsasən, məktəbəqədər təhsil uşağın fiziki və psixoloji inkişafı üçün ilkin əsasları formalaşdırmalı və onun sonrakı təhsil pillələrinə hazırlığını təmin etməlidir. Həmin qanunun 5.1-ci maddəsində isə vurğulanır ki, hər kəsin təhsil almaq hüququ vardır. Lakin bu hüququn təmin edilməsi yalnız nominal olaraq mövcuddur; praktikada bu hüquq məktəbəqədər mərhələdə bərabər şəkildə həyata keçirilmir. Dövlət Statistika Komitəsinin 2023-cü il məlumatına görə, məktəbəqədər təhsil müəssisələrində təhsil alan uşaqların sayı 274 min nəfər təşkil edir ki, bu da 0-6 yaş arası uşaqların cəmi 17 faizini əhatə edir. Bu göstərici ilə Azərbaycan həm Qafqaz regionu üzrə, həm də MDB ölkələri arasında son sıralarda yer alır. Gürcüstanda bu göstərici 37%, Qazaxıstanda isə 45%-dir. Avropa İttifaqı ölkələrində məktəbəqədər təhsilin əhatə dairəsi 85-98% arasında dəyişir.



Müasir dövrdə məktəbəqədər təhsil yalnız uşağın saxlanılması məqsədilə deyil, onun erkən yaşdan sosial, emosional və intellektual bacarıqlarının inkişaf etdirilməsi baxımından strateji əhəmiyyət daşıyır. UNESCO-nun 2021-ci il hesabatında qeyd olunur ki, məktəbəqədər təhsil alan uşaqlar ibtidai təhsil pilləsində daha yüksək göstəricilərə malik olur və sosial adaptasiya qabiliyyətləri yüksək olur. Azərbaycanda isə bu mərhələ əhali üçün ya əlçatmaz, ya da keyfiyyətsiz formatda təqdim olunur. Dövlət bağçalarının sayı və tutumu kifayət deyil, özəl bağçalar isə çox vaxt astronomik qiymətlərlə fəaliyyət göstərir. Siyavuş Novruzovun qeyd etdiyi kimi, bəzi özəl mərkəzlərdə təhsil haqları aylıq 7000 manata qədər yüksəlir. Halbuki 2024-cü il üçün orta aylıq əməkhaqqı ölkə üzrə 950 manat təşkil edir. Əgər bir ailədə iki uşaq varsa və hər ikisi məktəbəqədər mərkəzə gedirsə, bu, ailənin aylıq gəlirinin çoxunu udur və belə şəraitdə məktəbəqədər təhsilin əlçatanlığından danışmaq mümkün deyil.

Mənfi tərəflər təkcə iqtisadi deyil, eyni zamanda pedaqoji və hüquqi aspektləri də əhatə edir. Bir çox özəl bağçalarda müəllim heyəti qeyri-ixtisaslı şəxslərdən ibarətdir, proqramlar təlim və metodik göstərişlərə uyğun gəlmir, monitorinq və lisenziyalaşdırma mexanizmləri zəifdir. "Məktəbəqədər təhsil haqqında" Qanunun 10.2 maddəsində göstərilir ki, bu müəssisələr təhsil proqramlarına uyğun fəaliyyət göstərməli, ixtisaslı müəllimlərlə təchiz olunmalıdır. Lakin bu tələblərə əməl olunmadığı halda belə, inzibati və ya hüquqi mexanizmlərlə ciddi nəzarət həyata keçirilmir. Bu da uşaqların təhlükəsizliyini, rifahını və psixoloji durumunu təhlükəyə atır".

**Ekspertin fikrincə, bu məsələ artıq parlament səviyyəsində və ictimai diskursda aktual müzakirə obyektinə çevrilib**: "Bu sahədə dövlətin nəzarəti gücləndirməsi, müəyyən normativ dəyişikliklərə gedilməsi və bazara daha ədalətli tənzimləmə mexanizmlərinin tətbiqi mümkündür. Bir neçə şəhərdə pilot layihə olaraq dövlət-özəl tərəfdaşlığı ilə yaradılan məktəbəqədər mərkəzlər uğurlu nümunə sayıla bilər. Bundan başqa, məktəbəqədər təhsilə çıxış imkanlarını genişləndirmək üçün dünya təcrübəsində tətbiq olunan "çoxmərtəbəli yaşayış komplekslərində sosial infrastrukturun məcburi tikintisi" prinsipi Azərbaycan şəhərsalma siyasətinə də daxil edilməlidir. Məsələn, Sinqapurda hər yeni binada uşaq bağçası sahəsi ayrılmadan inşa icazəsi verilmir. Yaponiyada isə məktəbəqədər təhsil müəssisələri əsasən bina komplekslərinin daxilində fəaliyyət göstərir və bu, ailələr üçün həm logistik, həm maliyyə, həm də təhlükəsizlik baxımından effektivdir".

**K.Əsədov deyir ki, bu istiqamətdə dəyişəcək əsas məqam, dövlətin sosial siyasətində məktəbəqədər təhsilin prioritet səviyyəyə yüksəldilməsidir:** "Bu, bir tərəfdən valideynlərin iş həyatına daha rahat adaptasiyasını təmin edəcək, digər tərəfdən isə cəmiyyətin gələcəyinə - uşaqların erkən yaşdan keyfiyyətli təhsil almasına zəmin yaradacaq. Dəyişməli olan isə hüquqi nəzarətin gücləndirilməsi, özəl sektorun qiymət siyasətinə sərt tənzimləyici mexanizmlərin tətbiqi və yeni tikililərdə məktəbəqədər təhsil müəssisələrinin yaradılmasının qanunla məcburi olmasıdır. Eyni zamanda dövlətin subsidiya və vauçer mexanizmi ilə aztəminatlı ailələrin uşaqlarının bu mərkəzlərə çıxışını təmin etməsi sosial ədalətin bərqərar olması üçün vacibdir".

**Kamran Əsədovun sözlərinə görə, deputat Siyavuş Novruzovun qaldırdığı məsələ sistemli yanaşma tələb edir:** "Bu, sadəcə,bir binanın altında bağça açmaqla deyil, təhsil, sosial təminat, şəhərsalma və iqtisadiyyat sahələrinin koordinasiyalı şəkildə işləməsi ilə reallaşa bilər. Əgər bu sahədə köklü dəyişikliklər edilməzsə, həm təhsil keyfiyyəti, həm ailə rifahı, həm də sosial bərabərlik baxımından dərinləşən uçurumla qarşılaşmaq qaçılmaz olacaq".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Bakıda 1550 fizika və informatika müəllimi imtahan verdi

## Ekspertlər bu prosesi peşəkar inkişaf və təhsildə keyfiyyət artımının başlanğıcı sayır



**İyunun 25-də Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrində çalışan 1550 müəllim (741 fizika, 809 informatika) sertifikatlaşdırma prosesinin test imtahanı mərhələsinə dəvət olunub.**

BŞTİ-dən Musavat.com-a bildirilib ki, Elm və Təhsil Nazirliyinin, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin və BŞTİ-nin struktur bölmə rəhbərləri imtahan mərkəzinə gəlib, sertifikatlaşdırma imtahanlarının gedişini izləyiblər.

Sertifikatlaşdırmanın test imtahanı mərhələsi iyunun 18, 19, 20, 24 və 25-də Bakı şəhəri üzrə 9 imtahan mərkəzində təşkil edilib. Cari ildə paytaxtda 4500-dən çox müəllim sertifikasiyaya cəlb olunub.

Test imtahanında mümkün 60 baldan minimum 30 bal toplamış müəllimlər sertifikatlaşdırmanın müsahibə mərhələsində iştirak hüququ qazanacaq.

**Təhsil İşçilərinin Həmrəyliyi Alyansının (TİHA) sədri, təhsil eksperti Əmrah Həsənli** AzEdu.az-a açıqlamasında deyib ki, müəllimlər üçün sertifikasiya özünü davamlı inkişaf və peşəkar məsuliyyət kontekstində qiymətləndirmə fürsəti kimi qəbul olunur: "Bu da onların daxili motivasiyasını artırır, çünki bilirlər ki, bu proses onların bilik və bacarıqlarını təkcə yoxlamaqla qalmır, həm də onları yenidən formalaşdırır və təkmilləşdirir. Beləcə, müəllimlər passiv yanaşmadan aktiv öyrənmə və inkişaf istiqamətinə yönəlir, işə münasibətləri daha məqsədyönlü və məsuliyyətli olur".

**Ə.Həsənli söyləyib ki, sertifikasiyanın təsiri müəllimlərin özlərinə olan inamını da artırır:** "Çünki bu prosesdə uğur qazanmaq üçün ciddi hazırlıq, özünüqiymətləndirmə və peşəkar standartlara riayət etmək tələb olunur. Uğurlu nəticə müəllimlərdə öz peşələrinə hörmət və nüfuz hissini daha da gücləndirir, bu isə işə münasibətdə müsbət dönüş yaradır. Eyni zamanda sertifikasiya müəllimləri peşəkar cəmiyyətin bir hissəsi kimi birləşdirir, onların əməkdaşlıq və təcrübə mübadiləsinə marağını artırır.

Təbii ki, sertifikasiya prosesində hələ də bəzi çətinliklər, xüsusən bərabərsizlik, resurs çatışmazlığı və psixoloji yük kimi məsələlər mövcuddur. Lakin mən inanıram ki, bu mexanizm təkmilləşdikcə, müəllimlərə yalnız yoxlama deyil, həm də dəstək və inkişaf üçün şərait yaradıldıqca, təhsilin keyfiyyəti fundamental şəkildə yüksələcək. Sertifikasiya müəllim peşəsinin modernləşməsinə, motivasiyanın artırılmasına və pedaqoji davranışların transformasiyasına real təkan verən sistemə çevrilməkdədir".

"Mən belə düşünürəm ki, sertifikasiya Azərbaycan təhsilində müəllimlərin peşəkar statusunu yüksəldən və təhsilin ümumi səviyyəsini qaldıran güclü vasitədir", - deyə ekspert qeyd edib.

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 119 (8719) 26 iyun 2025



## Ağ Ev iyuladək Harvardla razılaşma əldə etməyə çalışır

**Tramp administrasiyası əcnəbi tələbələrin qəbulu ilə bağlı fikir ayrılıqlarını həll etmək üçün Harvard Universiteti ilə danışıqları sürətləndirir.**

Musavat.com "The Washington Post"un Ağ Evdəki mənbələrə istinadən yaydığı məlumata istinadən xəbər verir ki, hakimiyyət iyunun sonuna kimi Harvardla müqavilə bağlamaq niyyətindədir. Ağ Ev ümid edir ki, sazişlər "digər ali təhsil müəssisələri ilə müqavilələrə əsas yaratmaq" üçün kifayət qədər rezonans doğuracaq.

Eyni zamanda universitetə yaxın mənbə qəzetə bildirib ki, Harvard ABŞ Konstitusiyasına 1-ci düzəlişin təmin etdiyi dəyər və hüquqları güzəştə getməyəcək.

Qeyd edək ki, Tramp və onun administrasiyasının nümayəndələri dəfələrlə Harvard və digər nüfuzlu Amerika universitetləri ilə bağlı tənqidi açıqlamalar veriblər. ABŞ Səhiyyə və İnsan Xidmətləri Nazirliyi Harvard üçün nəzərdə tutulan 60 milyon dollar federal qrantı ləğv edib. Buna səbəb kimi universitetin antisemitizm, etnik və irqi ayrı-seçkilik problemlərini həll edə bilmədiyi göstərilib. Ağ Ev həmçinin Harvardın xarici ölkələrdən tələbə qəbulu icazəsini də dayandırıb.

Buna cavab olaraq universitet Boston federal məhkəməsində iddia qaldırıb. May ayında məhkəmə universitetin vəsatətini təmin edib və hökumətə Harvardın xarici tələbələrin qəbulunu məhdudlaşdırmağı qadağan edib. Sərəncam hökumətin Harvardın sertifikatını ləğv etməsinə mane olur və bu, universitetə ABŞ-da təhsil almaq üçün əcnəbi tələbələri qəbul etməyə imkan verir.

❑ **DÜNYA, "Yeni Müsavat"**

## Son üç ildə dövlət proqramı üzrə 1252 tələbə xaricdə təhsil almaq hüququ qazanıb

**"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" 2022-ci ildən etibarən həyata keçirilir.**

"Report" xəbər verir ki, bunu Dövlət Proqramı İdarəetmə Qrupunun rəhbəri Turan Topalova "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində xaricdə bakalavriat və magistratura təhsil səviyyələri üzrə qəbulun müsahibə mərhələsinin başlaması ilə əlaqədar keçirilən tədbirdə jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, proqram çərçivəsində ümumilikdə 1252 nəfər tələbə təhsil almaq hüququ qazanıb:

"Proqram iştirakçılarından 196 nəfər müvafiq beynəlxalq reytinq cədvəllərində ("Times Higher Education", "QS World University Rankings" və "Academic Ranking of World Universities (Shanghai)") universitetlər üzrə top10-da yer alan ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıb. Proqram çərçivəsində təhsilini başa vuraraq ölkəyə qayıdan 351 nəfər Dövlət Proqramı məzunu adını qazanıb".

## Peşə təhsili ilə əlaqədar vahid informasiya sistemi yaradılacaq

**Peşə təhsilindən yararlanmış məhkumlara dair məlumatları əks etdirən vahid informasiya sistemi yaradılacaq.**

APA xəbər verir ki, bu, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən "Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Fəaliyyət Planı"nda əksini tapıb.

Sərəncama əsasən, Nazirlər Kabineti Ədliyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə peşə təhsilindən yararlanmış məhkumlara dair məlumatları əks etdirən (yararlandıqları peşə təhsili, əldə etdikləri təhsil sənədləri) vahid informasiya sisteminin yaradılması məqsədilə normativ hüquqi bazanın formalaşdırılmasını 2025-2027-ci illər ərzində təmin etməlidir. Vahid informasiya sisteminin istifadəyə verilməsi, həmin informasiya sisteminin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə 10 aidiyyəti dövlət orqanının (qurumlarının) informasiya sistemlərinə inteqrasiyasının təmin edilməsi həyata keçiriləcək.

Eyni zamanda bu müddət ərzində Ədliyyə Nazirliyi digər qurumlarla birgə peşə təhsilinə cəlb edilmiş məhkumların əmək bazarına çıxışını təmin edən müvafiq informasiya sisteminin yaradılmasını təmin etməlidir.

# Ekspertlərin "savadsız müəllim" davası - haqlı kimdir?

**2025-ci ildə müəllimlərin sertifikasiya imtahanları ətrafında yaranan müzakirələr təhsil sistemindəki problemlərin miqyasını bir daha üzə çıxardı. Bu proses təkcə pedaqoji bacarıqların yoxlanması deyil, eyni zamanda cəmiyyətin təhsilə baxışını, ictimai gözləntiləri və sistemin struktur problemlərini üzə çıxaran güzgüyə çevrildi. İki əsas mövqe arasında sərt fikir qarşıdurması yaranıb: biri savadsız müəllimlərin sistemdən çıxarılmasını tələb edir, digəri isə sosial ədalət və dəstək zərurətini vurğulayır. Haqlı tərəfi müəyyənləşdirmək isə asan deyil.**

**Təhsil eksperti Kamran Əsədov** imtahan nəticələrinin acınacaqlı mənzərə yaratdığını və bəzi müəllimlərin elementar biliklərə belə sahib olmadığını bildirir. Onun sözlərinə görə, 50 sualdan cəmi 30-na belə cavab verə bilməyən şəxsə "müəllim" demək mümkün deyil: "Bu adamlar təhsil vermir, vaxt öldürürlər. Onların sinif otağında qalması uşağın potensialını və gələcəyini oğurlamaq deməkdir. Təhsil sistemini bu cür məsuliyyətsiz insanlardan təmizləmək bizim borcumuzdur. Əgər bir müəllim imtahanda keçə bilmirsə və bunu sualların çətinliyi ilə izah edirsə, o zaman bu illər ərzində şagirdlərinə nə öyrədib?"

**Kamran Əsədov güzəşt çağırışlarına sərt cavab verir:** "Sertifikasiya təhsil sistemində son ümid nöqtəsidir. Bu imtahanı zəiflətmək, keçid balını azaltmaq, sualları sadələşdirmək istəyənlər təhsilin deyil, savadsızlığın tərəfdarıdırlar. Əgər bir müəllim öz fənnindən xəbərsizdirsə, o, artıq bu sistemdə yer almamalıdır. Məktəb sosial yardım yeri deyil. Orada yalnız bilikli, əxlaqlı və işinə məsuliyyətlə yanaşan müəllimlər olmalıdır".

**Sosioloq Lalə Mehralı isə məsələnin başqa bir tərəfinə diqqət çəkir. O, müəllimlərin imtahana psixoloji və sosial cəhətdən hazır olmadığını vurğulayır. Onun sözlərinə görə, bir çox pedaqoqlar dərs prosesini yarımçıq qoyaraq testə fokuslanmağa məcbur olublar:** "İllərlə ucqar kəndlərdə çalışan, az imkanlarla tədris aparan müəllimləri, sadəcə, bir imtahana əsasən "savadsız" elan etmək nə dərəcədə doğrudur? Əlbəttə ki, yüksək nəticə göstərənlər təqdir olunmalıdır. Amma 30-40 bal toplayanları aşağılamaq, sistemdən uzaqlaşdırmaq yanlışdır".

**O bildirir ki, məsələ yalnız müəllimlərin bacarığında deyil. Əgər ali məktəbdən məzun olmuş, 10 il dövlət məktəbində işləyən müəllim bu gün 30 bal toplaya bilmirsə, burada sistemin də ciddi payı var:** "Pedaqoji təhsil, metodika, ixtisasartırma kursları və təkmilləşmə mexanizmləri köklü şəkildə yenilənməlidir. Müəllimi günahlandırmadan əvvəl onu yetişdirən mexanizm sorğulanmalıdır".

**Təhsil eksperti Elmin Nuri isə məsələni daha obyektiv və texniki baxımdan qiymətləndirir. Onun fikrincə, imtahandan kəsilən müəllimlərə geniş imkanlar yaradılıb. İkinci dəfə imtahan vermək, ödənişsiz təlim və seminarlar, hətta minimal keçid balı ilə belə işdə qalmaq imkanları tanınıb:** "60 sualdan 30-na cavab verən müəllim yalnız işində qalmaqla kifayətlənmir, həm də maaş artımı qazanır. Bundan artıq hansı humanist addım ola bilər? Əgər bu qədər imkan yaradıldıqdan sonra müəllim hələ də nəticə göstərə bilmirsə, onun məktəbdə qalması təhsilin özünə ziddir".



**E.Nuri qeyd edir ki, hazırda sertifikasiyadan keçə bilməyən 7 min müəllim var və bu müəllimlər on minlərlə şagirdin həyatına təsir edir.** "Sertifikasiya savadsızların qarşısını almağa yönəlib. Bu təkcə yoxlama deyil, həm də seçim və inkişaf vasitəsidir. Bu gün bəziləri emosiyalara qapılıb müəllimləri müdafiə edir, amma heç kim düşünmür ki, həmin müəllimlərin sinfində təhsil alan uşaqların taleyi nə olacaq. Təhsildə güzəştin yeri yoxdur", - deyə ekspert bildirir.

**Elm və təhsil üzrə ekspert Rizvan Fikrətoğlu isə məsələni innovasiya və texnoloji tərəfdən qiymətləndirir. Onun fikrincə, bəzi müəllimlər texnologiyaya bələd olmamaq bəhanəsi ilə aşağı nəticə göstərdiklərini iddia edirlər:** "Amma bu gün müəllim yeni texnologiyaları bilməlidir. Əgər imtahandan əvvəl hazırlıq müddəti verilibsə, niyə bu vaxtdan istifadə edilməyib? Təhsil texnoloji və metodik baxımdan daim yenilənir. Müəllim bu dəyişikliklərə uyğunlaşa bilmirsə, artıq peşəkar fəaliyyət göstərə bilməz. Sertifikasiya həm də bu uyğunlaşmanı təmin edən əsas vasitədir".

2025-ci ildə keçirilən imtahanların statistikası da bu yanaşmaları təsdiqləyir. İl ərzində 35 mindən çox müəllim sertifikasiyaya cəlb olunub. Onların 68%-i keçid balını toplayaraq uğur qazanıb. Təxminən 40%-i 51 baldan yuxarı nəticə göstərərək 35% maaş artımı hüququ əldə edib, 28%-i isə 10% artım qazanıb. Lakin 32% müəllim 30 balı belə toplaya bilməyib. Bu rəqəmlər təkcə fərdi uğursuzluğu deyil, həm də sistemin keyfiyyət problemlərini əks etdirir.

Bu gün Azərbaycan təhsilində dəyişiklik zəruridir. Bu dəyişiklik yalnız biliklə deyil, həm də yanaşma ilə olmalıdır. Sertifikasiya sadəcə imtahan deyil - həm də güzgüdür. O güzgüdə kimin nə qədər hazırlıqlı olduğunu görmək və düzgün nəticə çıxarmaq gələcəyimizin təminatıdır.

❑ **Şahanə RƏHİMLİ, Musavat.com**

YENİ MÜSAVAT
N 109 (8719) 26 iyun 2025



# Deputatdan ailə həkimi təklifi - mütəxəssis baxışı

## "Ailə həkimi yalnız ad dəyişikliyi ilə yaradılmamalıdır, burada risklər və hüquqi aspektlər də nəzərə alınmalıdır"

**“İlkin tibbi-sanitariya yardımı müəssisələrinin zəruri maddi-texniki bazaya malik olmaması və mövcud kadr çatışmazlığı əhalinin əhəmiyyətli hissəsinin tibbi xidmətlərə əlçatanlığını azaldır, keyfiyyətli tibbi xidmətin göstərilməsinə maneə yaradır”.**

Bunu **Milli Məclisin Səhiyyə komitəsinin üzvü Pərvanə Vəliyeva** parlamentin iyunun 24-də keçirilən iclasında deyib.

P.Vəliyeva bildirib ki, kadrların yerli ehtiyaclara uyğun paylanmaması, bu sahədə peşəkar kadr hazırlığının uzunmüddətli əsasda planlaşdırılmaması, tibb mütəxəssislərinin müasir bilik və klinik təcrübədən yararlanmaq imkanlarının məhdudluğu əhalinin zəruri tibbi xidmətlərə bərabər əlçatanlığına və mövcud kadr resurslarının iş yükünün optimal paylanmasına mənfi təsir göstərir: “Təklif edirəm ki, baza tibb təhsili ilə kadrlar ailə həkimi kimi fəaliyyət göstərə bilsin, bu ixtisas üzrə ali məktəbə qəbul şərtləri asanlaşdırılsın və stimullaşdırılsın. Səhiyyəmizdə arzuolunan digər məqam isə "Reproduktiv sağlamlıq haqqında" qanunun qəbul edilməsidir. Süni mayalanma və digər prosedurlar günümüzün aktuallığı, dövrün tələbi və cəmiyyətimizin reallığı olsa da, bunun həyata keçirilməsinin qanuni bazasının olması da eyni dərəcədə vacibdir. İndi reproduktiv sağlamlıq məsələlərinə yeni baxış yaranıb".

Baza tibb təhsili olan kadrların ailə həkimi kimi fəaliyyət göstərməsi təklifinə mütəxəssislər necə yanaşır?

Qeyd edək ki, bəzi həkimlər bunun riskli olduğunu bildirir. Onlar hesab edirlər ki, ailə həkimi konsepsiyası bir həkimin bütün əsas sahələrdə ilkin diaqnoz, profilaktika və yönləndirmə bacarıqlarına malik olması deməkdir. Bu isə yalnız baza təhsili ilə mümkün deyil. Pasiyentlərin həyatını riskə atmaq olmaz. Bəziləri isə hesab edir ki, ailə həkimi statusunun kimə və necə verilməsi qanunla tənzimlənməlidir. Əgər baza təhsili kadrların bu sahəyə daxil olması planlaşdırılırsa, mütləq əlavə sertifikasiya, hüquqi məsuliyyət çərçivəsi və nəzarət mexanizmləri hazırlanmalıdır.

**Bakı Ağrı Klinikasının baş həkimi Zülfüqar Yusifov mövzu ilə bağlı “Yeni Müsavat”a deyib ki, ailə həkimliyi baza tibb təhsili üzərindən formalaşır:** “Bəzi ölkələrdə, hətta qardaş Türkiyədə də ailə həkimliyi baza tibb təhsili üzərindən başlaya bilir. Ümumiyyətlə, ailə həkimliyi institutu tibb sisteminin çox vacib bir zəncirinin mühüm bir həlqəsini təşkil edir. İlkin pasiyent qəbulu, onların seçilməsi, daha sonrakı yönləndirilməsi və s. kimi məsələlərin hamısı ailə həkimliyinin üzərinə düşür. Əgər bu institut normal şəkildə formalaşarsa, bu zaman ixtisaslaşmış həkimlərə yönələn izafi yük də azalır.

Sadəcə, bu ailə həkimliyi institutunun normal, beynəlxalq standartlara uyğun şəkildə qurulması şərtdir. Əgər biz bu gün ailə həkimliyi deyərkən sadəcə, məsələn, poliklinikada çalışan bir həkimin adını dəyişdirib “ailə həkimi” qoyarıqsa, əlbəttə ki, bu yanaşma ilə problemin mahiyyətini həll edə bilmərik. Amma baza tibb təhsilinin içində ailə həkimliyinə uyğun bir proqramın ayrıca daxil edilməsi mümkündür və bu, olduqca faydalı ola bilər.

İşin ikinci tərəfi isə budur ki, əvvəlki dövrlərdə tətbiq olunan “internatura” kimi bir sistemin yenidən qurulması faydalı ola bilər. Məsələn, baza tibb təhsilinin üzərinə 6 ay və ya 1 il müddətində əlavə, yüngül, lakin spesifik bir təhsil alınaraq ailə həkimliyi üzrə ayrıca diplom əldə edilə bilər. Belə bir yanaşma da tamamilə məntiqlidir. Bu sahədə ayrıca bir tədrisə ehtiyac var. Çünki belə bir tədris olmadan, yalnız baza tibb təhsili özlüyündə ailə həkimliyi üçün yetərli olmayacaq.

Bu yanaşma zəruri olan bir sıra mühüm nüansları da üzə çıxarır. İlk olaraq, pasiyentin qəbulu, çeşidlənməsi prosesi, ailənin davamlı şəkildə müşahidədə saxlanılması, onlarla təmas vərdişləri və ünsiyyət bacarıqları - bütün bunlar ayrıca tədris prosesini tələb edir.

Dünyada ailə həkimliyinin başqa bir mühüm cəhəti də var. Biz ailə həkimini bəzən yalnız terapevt kimi düşünürük, amma əslində bu, belə deyil. Ailə həkimləri çoxşaxəli fəaliyyət göstərən şəxslərdir. Onlar sadəcə terapevt deyil - ilkin kardioloji məsələləri dəyərləndirə bilirlər, yoluxucu xəstəliklər barədə fikir bildirə bilirlər, bəzən isə sadə cərrahi prosedurları - yaraların işlənməsi, tikişlərin qoyulması kimi işləri də həyata keçirə bilirlər. Bu baxımdan ailə həkimliyi olduqca vacib və kompleks bir institutdur".

**Həkimin fikrincə, baza tibb təhsili olan şəxslər bu sahəyə uyğundur:** “Amma baza tibb təhsilinin daxilində mütləq şəkildə ailə həkimliyinə uyğun ayrıca bir proqramın da yer alması vacibdir - xüsusən bu sahəni seçən tələbələr üçün gələcəkdə zəruri olacaq. İkinci tərəfdən isə bundan sonra əlavə olaraq altı aylıq birlikdə bir ixtisaslaşma təhsili olmalıdır. Və qeyd etmək istərdik ki, artıq mövcud olan altı aylıq təhsil proqramlarında ailə həkimliyinə dair müəyyən elementlər var. Lakin bu sahədə əsas məsələ odur ki, mövcud tədris metodikası müasir dünyanın tələblərinə və yerli ehtiyaclara uyğun şəkildə qurulsun. Yəni bizə məxsus, səmərəli və real ehtiyaclara cavab verən bir ailə həkimliyi modeli formalaşdırılmalıdır ki, bu da nəticə etibarilə effektiv bir institutun yaranmasına gətirib çıxarsın”.

**Professor Adil Qeybulla hesab edir ki, ailə həkimi institutu müasir tibbin ayrılmaz tərkib hissəsidir və bu model Qərb ölkələrinin səhiyyə sistemində əsas dayaq nöqtələrindən biridir:** “Qərb təbabətini ailə həkimi institutu olmadan düşünmək mümkün deyil. Azərbaycanda da bu istiqamətdə islahatlar artıq başlayıb. İcbari Tibbi Sığortanın tətbiqi və ilkin səhiyyə xidmətlərinə diqqətin artması bunu sübut edir. Ailə həkimliyi modeli formalaşma mərhələsindədir”.

**Professor bildirir ki, Azərbaycan Tibb Universitetində ailə həkimliyi sahəsində ixtisaslaşmış kadrların hazırlanması artıq başlayıb və bu prosesin yaxın illərdə real nəticələr verəcəyi gözlənilir:** “Sovet sistemində bu funksiyanı sahə həkimləri icra edirdi, lakin bu model indiki dövrdə effektivliyini itirib. Müasir ailə həkimi isə daha çevik, daha funksional və xəstəni kompleks şəkildə müşahidə edə bilən mütəxəssis olmalıdır. O, öz sahəsindəki insanların sağlamlıq tarixçəsini bilir və bu da düzgün diaqnoz və vaxtında müdaxilə baxımından ciddi üstünlükdür”.

**Professorun fikrincə, ailə həkimliyi Azərbaycanın yaxın dövr üçün perspektivli səhiyyə modeli olacaq və bu sahədə həm nəzəri, həm də praktiki addımlar artıq atılmaqdadır.**

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**

# Bağçalarda vermişel əvəzinə balıq - yeni tələb

**Tibb və təhsil müəssisələri, sosial sahəyə aid müəssisələrdə şəxslərin qida normalarının yenilənməsinin hüquqi əsası yaradılacaq və yeni qida normaları müəyyən ediləcək. Bu məsələ Milli Məclisin mayın 21-də keçirilən iclasında müzakirə olunan “Yaşayış minimumu haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.**




Qanun layihəsinə əsasən, minimum istehlak səbətinin qida məhsulları üzrə tərkibi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tibb müəssisələrində, təhsil müəssisələrində və sosial sahəyə aid müəssisələrdə şəxslərin qida normaları müəyyən ediləcək.

Xatırladaq ki, hazırda dövlət uşaq bağçaları (məktəbəqədər təhsil müəssisələri) Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyindədir.

Bəs hazırda uşaq evlərində və internat məktəblərində təklif edilən yemək rasionları hansı real göstəricilərlə ölçülür və nə qədər effektivdir?

Mövzu ilə bağlı təhsil eksperti Elçin Əfəndi “Yeni Müsavat”a danışıb. Ekspert qeyd edib ki, həm təhsil müəssisələrində, o cümlədən müvafiq sosial sahələrdə - yaşlıların sığınacaqlarında, əqli qüsurlu uşaqların olduğu müəssisələrdə qidalanma dövlət tərəfindən təmin olunur: “Buna görə də, əlbəttə, bu sahə ilə bağlı müvafiq normativlər aidiyyəti qurumlar tərəfindən hazırlanır və təqdim olunur.

Uşaq bağçaları, uşaq evləri, məktəbəqədər sanatoriyalar üzrə hər bir uşağa nə qədər çörək, birinci növ, ikinci növ yeməklər, kartof, meyvələr, kərə və bitki yağı, süd, kəsmik, ət, toyuq əti, balıq, pendir və digər qida məhsulları düşdüyü, Nazirlər Kabinetinin qəbul etdiyi həmin qərarda öz əksini tapıb.

İstər körpələr evi, istər məktəbəqədər təhsil müəssisələri olsun, bu kateqoriyalarda uşaqların qidalanması, xüsusən də kalori dəyəri yüksək olan məhsulların verilməsi vacibdir. Ona görə də daha dəqiq qərar qəbul olunması üçün Qida Təhlükəsizliyi Agentliyi bu məsələdə iştirak etməlidir. Müvafiq qurumların rəyi alınmalı, bu rəy əsasında normativlər hazırlanmalıdır”.

Ekspert bildirir ki, bu sahədə bağçalar daha strateji istiqamətdir: “Hər bir şəxs üçün nəzərdə tutulan bütün qidalar norma çərçivəsində verilməlidir, normadan aşağı qidalanma yolverilməzdir. Məsələn, bir uşağa ayda cəmi 2 kiloqram ət düşməsi fikrimcə doğru deyil. Bu, ən azı 4-5 kiloqram olmalıdır”.

Təhsil eksperti Elşən Qafarov isə xatırladır ki, 2011-2021-ci illərdə məktəbəqədər təhsil müəssisələrinin infrastrukturunun qurulmasında çox ciddi problemlər yaşanıb, qida təminatı məsələsində də kifayət qədər neqativ hallara yol verilib.

“Təəssüf ki, bəzi məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri hələ də 5-10 il öncənin baxışları və fikirləri ilə yaşayır, uşaqlara ayrılan qidanı mənimsəməklə məşğul olurlar. Təhsil idarəetmə orqanları bu məsələ ilə bağlı nə qədər mübarizə aparsalar da, hələ ki, sistemli iş qura bilməyiblər. Xüsusilə də regionlarda qida təminatı ilə bağlı bəzi məktəbəqədər təhsil müəssisələrinin rəhbər və işçilərinin cinayət xarakterli əməllərinə, ərzaqların başqa istiqamətlərə yönəldilməsinə dair faktlara da rast gəlirik” - ekspert bildirib.

E.Qafarovin fikrincə, nəzarət sistemi düzgün qurulmalıdır və uşaqların qida təminatı üçün ayrılmış normativlər olduğu kimi tətbiq edilməlidir.

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

N 109 (8719) 26 iyun 2025

iyun


## Bunları bilirsinizmi?

* Nəhəng ölçülərinə baxmayaraq, fillər çox yaxşı üzgüçüdürlər. Dərin sularda üzərkən gövdələrindən şnorkel kimi istifadə edirlər. Lazım olanda dayanmadan bir neçə saat üzə bilirlər.
* Ulduz balığı kəsildiyi təqdirdə qollarını bərpa edə bilər. Əslində dənizyıldızı tək qolundan bütün yeni bədən yetişdirə bilər.
* İmperator pinqvinləri bir nəfəslə demək olar ki, 30 dəqiqə dalış edə bilirlər.
* Mantislər başlarını 180 dərəcə çevirə bilirlər.
* Qütb ayıları ovlarının iyini 30 kilometr uzaqdan hiss edə bilirlər.
* Kolibrilər havada qalmaq üçün saniyədə 80 dəfə qanad çırpırlar. Yaqut boğazlı kolibri saniyədə 200 döyüntü sürətinə çata bilir.
* Delfinlərin də insanlar kimi şəxsi adları var. Onlar bir-birilərini öz adları ilə çağırırlar, bu yüksək səsli qışqırıqlardır.
* Ən sürətli üzən dəniz heyvanı yelkən balığıdır. Qurudakı ən sürətli heyvan çitadır. Hər iki heyvanın maksimal sürəti saatda təxminən 110 kilometrdir.
* İlanlar dilləri ilə iy bilirlər. Onlar bəzən dillərini çıxarır və qoxu molekullarını toplayırlar. Daha sonra ağızlarının üstündəki Jacobson adlı orqanla bu molekulları analiz edirlər.



## İnsan ölümdən əvvəl nələr görür? - mütəxəssislər danışdı

**"Ölümdən əvvəl insanda baş verən prosesləri anlamaq, ağır xəstə yaxınlarına qulluq edən qohumlar üçün mühüm dəstək ola bilər".**

Oxu.Az-ın "Medscape Medical News"a istinadla verdiyi məlumata görə, bu barədə İtaliya Palliativ Yardım Cəmiyyətinin mütəxəssisləri bəyan ediblər.

Araşdırmalara əsasən, ölüm səbəbindən asılı olmayaraq, insanların əksəriyyəti həyatlarının son mərhələsində oxşar simptomlarla qarşılaşırlar. Bunlardan birincisi yuxu rejiminin dəyişməsidir: xəstələr daha çox yatmağa başlayır, gecələr oyaq qalır, gündüzlər isə yatırlar, bu isə bioloji ritmin pozulmasına səbəb olur.

Psixoloji vəziyyətdə də dəyişikliklər müşahidə edilir. Çox zaman ölümə yaxın insanlarda narahatlıq, təşviş, bəzən isə əminlik və daxili rahatlıq hissi yaranır. Araşdırma göstərib ki, bəzi insanlar ölümün yaxınlaşdığını intuitiv olaraq hiss edirlər.

Xüsusi diqqət çəkən fenomen isə "ölümqabağı görüntülər"dir. Elm adamlarının müşahidələrinə görə, bu dövrdə bir çox xəstələr ətrafdakı yaxınlarını tanımasalar da, dünyasını dəyişmiş qohumlarının görünməsi barədə məlumat verirlər. Mütəxəssislər bildirirlər ki, belə hallarda həmin görüntülərin illüziya olduğunu izah etməyə ehtiyac yoxdur. Əksinə, empatiya göstərmək, onların hisslərinə hörmətlə yanaşmaq və dəstək atmosferi yaratmaq daha vacibdir.

Həyatın son mərhələlərində insan ətraf aləmdən uzaqlaşır, qida və maye qəbulundan imtina edir. Bəzi hallarda bədən temperaturu yüksəlir, tərləmə artır, insan sərin su istəyir. Digər hallarda isə əzalarda temperaturun əhəmiyyətli dərəcədə aşağı düşməsi baş verir.

Bundan başqa, ölümdən əvvəl "terminal tənəffüs" deyilən hal baş verir: xırıltılı ilə müşayiət olunan nəfəs bu mərhələdə normaya çevrilir. Bu, qohumlarda narahatlıq yaratsa da, həkimlər bildirirlər ki, bu proseslər ölümlə bağlı fizioloji və təbii haldır.

# İtaliyada dünyanın ən ensiz avtomobili görüntüləndi



**İtaliyada məşhur "Fiat Panda" avtomobil modelinin qeyri-adi versiyası görüntülənib. Oxu.Az xəbər verir ki, bu barədə Tengrinews.kz məlumat verib. Avtomobilin kuzovu ensizləşdirilib və təkərləri bir-birinə daha yaxın yerləşdirilib. Qeyri-standart ölçülərinə baxmayaraq, avtomobil kifayət qədər hərəkətli görünür. Qeyri-adi nəqliyyat vasitəsinin videoları tez bir zamanda sosial şəbəkələrdə yayılıb. Kadrlarda ensiz avtomobilin sərbəst hərəkət etdiyi və yoldan keçənlərin təəccüb dolu reaksiyasına səbəb olduğu əks olunub.**

## Gecə tez-tez oyanırsınızsa, diqqətli olun - həkimlərdən vacib xəbərdarlıq



**Gecə tez-tez oyanmaq ciddi xəstəliklərin əlaməti ola bilər. Oxu.Az "Daily Express"ə istinadla xəbər verir ki, bu barədə Avstraliyanın Flinders Universitetinin yuxu üzrə mütəxəssisləri xəbərdarlıq ediblər. Mütəxəssislərin apardığı araşdırma göstərib ki, yuxunun tez-tez bölünməsi təkcə yuxu pozuntusu deyil, həm də insult və ürək çatışmazlığı kimi təhlükəli xəstəliklərin ilkin əlaməti ola bilər. Risk qrupuna əsasən artıq çəkidən əziyyət çəkən, gecələr yüksək qan təzyiqi müşahidə olunan və xoruldayan şəxslər daxildir. Bu amillər yuxu rejimini pozur və sağlamlıq üçün ciddi risk yaradır.**

"Araşdırmamız nəticəsində ilk dəfə sübut etdik ki, daimi xoruldama ilə yüksək qan təzyiqi arasında ciddi əlaqə var", - deyə layihənin rəhbəri, doktor Bastien Leşat bildirib.

Elm adamları 72 mindən çox insanın yuxusunu uzun müddət ərzində xüsusi texnologiyalar vasitəsilə ev şəraitində izləyiblər. Nəticədə məlum olub ki, iştirakçıların 15%-i, xüsusilə də artıq çəkisi olan şəxslər gecənin 20%-dən çoxunu xoruldamaqla keçirirlər. Bu isə nəzarətsiz hipertenziya (yüksək təzyiq) ilə birbaşa əlaqəlidir.

Leşat qeyd edib ki, daimi yüksək təzyiq ürək çatışmazlığı, insult, ürək və böyrək xəstəliklərinə yol aça bilər.

## Yer kürəsi quşların yox olması böhranı ilə üz-üzədir

**Elm adamları gələcək əsrdə 500-dən çox quş növünün yox ola biləcəyini müəyyən ediblər. Onlar quş populyasiyasını bərpa etmək üçün təcili proqramların həyata keçirilməsinə çağırıblar. Oxu.Az xəbər verir ki, barədə "The Guardian" nəşri məlumat verib. Qeyd olunub ki, hətta bir neçə quş növünün yoxa çıxması bütün dünyada ekosistemləri məhv etmək təhlükəsi yaradır. Reding Universitetinin tədqiqatının aparıcı müəllifi Kerri Stüartın sözlərinə görə, Yer kürəsi quşların yox olması böhranı ilə üz-üzədir. Proqnozlara görə, 2125-ci ilə qədər planetdə son 500 ildəkindən daha çox quş yoxa çıxacaq.**

Quşların nəslinin kəsilməsində əsas amil kənd təsərrüfatının genişlənməsi və inkişafı olub. Onların populyasiyasına, həmçinin iqlim dəyişikliyi, meşələrin məhv olması, yaşayış mühitinin pisləşməsi kimi amillər təsir edir. Eyni zamanda quşlara mənfi təsir dayandırılsa belə, 250 növ quş yenə də yox olacaq. Alimlər unikal növləri qoruyub saxlamaq üçün bu quşları təcrid edilmiş şəkildə yetişdirmək və onların yaşayış yerlərini bərpa etmək üçün proqramların yaradılmasına çağırırlar.

## Bir ay hər gün limonlu su içsəniz nə olar?



**Son illərdə sağlam həyat trendləri arasında populyarlığını artıran limonlu su sadə, lakin təsirli bir vərdiş olaraq diqqət çəkir. Xüsusilə səhərlər ac qarına bir ay nizamlı olaraq istehlak edildikdə limonlu suyun orqanizmdə yaratdığı dəyişikliklər az qala möcüzədir.**

**Həzm sistemini nizamlayır.**

Limonlu su mədə turşusunu balanslaşdıraraq həzmi asanlaşdırır. Xüsusilə qəbizlik problemi olanlar üçün müntəzəm istehlak edildikdə bağırsaq hərəkətlərini artıraraq təbii həll yolu təqdim edir.

**Toksinlərdən təmizləyir.**

Limon qaraciyəri stimullaşdıraraq bədəndən toksinlərin çıxarılmasına kömək edir. Limonlu su bir növ "təbii detoks" effekti yaradır və dərini daha parlaq edir.

**İmmunitet sistemini gücləndirir.**

C vitamini ilə zəngin olan limon immunitet sistemini dəstəkləyir. Soyuqdəyməyə qarşı qalxan rolunu oynayan bu qarışıq xəstəliklərə qarşı müqaviməti təmin edir.

Dəri sağlamlığını dəstəkləyir.

## Tualetdə mobil telefondan istifadə ağır fəsadlara səbəb ola bilər




**Telefonunuzu tualetdə istifadə etmək kimi vərdiş cihazınızı təhlükəli mikroorqanizmlər üçün sığınacaq halına gətirə bilər. Bu xəbərdarlıqla Lester Universitetinin klinik mikrobiologiya üzrə professoru Primrouz Frost çıxış edib. O vurğulayıb ki, bağırsaq çöpləri asanlıqla orqanizmə keçərək ishal və mədə spazmına səbəb ola bilər.**

"Əllərinizi sabunla yuduqdan sonra telefona yenidən toxunduğunuz zaman bu mikroblar əllərinizə geri qayıda bilər. Buna görə də telefon tualetdə istifadə olunmamalı və mütəmadi olaraq spirtli salfetlərlə dezinfeksiya edilməlidir", - deyə professor bildirib.

Səhifəni hazırladı: SELCAN


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500